KHAZAR REVIEW

№ 373 May 2018

XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org


EURAS
KHAZAR UNIVERSITY
Yazar-Şair-Matematikçi
Hazar Üniversitesi Kurucusu
Prof. Dr. HAMLET ISAXANLI
"Eserleri Seslendiriliyor"
Azerbaycan Devlet Sanatoları ve Hazar Üniversitesi
Oda Orkestrası tarafından
7 Mayıs 2018
16:00
A Blok Konferans Salonu




EXIT


EURAS


İSTANBUL AYDIN
ÜNİVERSİTESİ


DÜNYAYA
GETİRDİM...



İÇİNDƏKİLƏR

Lyublyana Universiteti İqtisadiyyat fakültəsinin əməkdaşları "Xəzər"də ... 4
Universitet xəbərləri 6
NASA-nın keçmiş əməkdaşı Xəzər Universitetində 8
Meksikanın Azərbaycandakı səfiri tələbələrə muhazirə oxudu 11
Türkiyənin 26-cı Baş Qərargah rəisi orgeneral İlker Başbuğ Xəzər Universitetinin qonağı oldu 12
Professor Hamlet İsaxanlının İstanbul Aydın Universitetində 70 illik yubileyi keçirildi 18
Belçika səfirinin Xəzər Universitetində muhazirəsi 26
Xəzər Universitetinin Kamera orkestri FHN-in tədbirində 30
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri 36
"İstək" liseyinin şagirdləri ilə görüş 38
Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti "The Same" komandası ilə görüşdü 44
NDU xəbərləri 46
"Maliyyə və mühasibatlıq sahəsində karyera inkişafı" mövzusunda seminar 50
Xəzər Universitetinin nümayəndələri abituriyentlərlə bağlı konfransda 52
Bədirxan Əhmədli. Ləyaqətin anatomiyası 58
"Xəzər"in əməkdaşları ölkə və xarici simpoziumlarda 67
Rut Rendel. Bu, mümkün deyil (*hekayə*) 70

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Afiə Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eyvaz Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Afia Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eyvaz Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre



LYUBLYANA UNİVERSİTETİ İQTİSADİYYAT FAKÜLTƏSİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ

Aprelin 23 - 24-də Xəzər Universiteti Lyublyana Universitetinin (Sloveniya) İqtisadiyyat fakültəsinin (FELU) nümayəndələrini qəbul etdi. Səfərin ilk günü qonaqlara Azərbaycanın mədəniyyəti və tarixi ilə tanışlıq proqramı təşkil edildi. Bu məqsədlə qonaqlar Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna səfər etdilər.

Aprelin 24-də müsafirlər Xəzər Universitetinin "Neftçilər" kampusunda həyata keçirilən proqramda iştirak etdilər. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqlarla görüşdü.

FELU-nun nümayəndə heyətinə Beynəlxalq əlaqələr şöbəsinin direktoru Danijela Voljc, Beynəlxalq əlaqələr ofisinin nümayəndəsi Klavdija Besednjak, Keyfiyyətin təminatı ofisinin rəhbəri Smiljana Zajec, Marketinq şöbəsinin direktoru Tanja Gvozdenovic, Mühasibatlıq şöbəsinin rəhbəri Dusan Jerse və Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində bir neçə mühazirə oxuyan İqtisadiyyat fakültəsinin Biznes ingilis dili fənni üzrə mühazirəçisi Zenja Kansky-Rozman daxil idilər.

Xəzər Universitetini isə Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı dr. Ceyhun Məmmədov, dekan müavini Dr. Şəhriyar Muxtarov, fakültənin müəllimləri Dr. Elvin Məmmədov, dr. Bahadır Baysal, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova təmsil edirdilər.

Xəzər Universiteti FELU ilə əməkdaşlığa 2015-ci ildə Erasmus+ proqramının tərkibi olan Beynəlxalq Kredit Mobilliyi çərçivəsində başlamışdır.

O zamandan etibarən əməkdaşlıq daxilində Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin beş tələbəsi proqramdan faydalanaraq, FELU-da bir semestr təhsil almışlar. Hazırda Xəzər Universitetinin üç tələbəsi FELU-da bir semesterlik mübadilə proqramının iştirakçısıdır.

VISIT FROM FACULTY OF ECONOMICS OF UNIVERSITY OF LJUBLJANA WITHIN ERASMUS+ PROGRAMME



On April 23-24, Khazar University hosted a delegation from the Faculty of Economics of the University of Ljubljana (FELU, Slovenia) within the Erasmus+ Programme. On April 23, a program to familiarize guests with culture and history of Azerbaijan was organized. Guests visited Gobustan National Historical Artistic preserve.

On April 24, guests participated in the program that took place on the Neftchiler campus of Khazar University. The program consisted of presentations of both universities and discussions. The Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees Prof. Hamlet Isakhanli also met with the guests.

FELU delegation included: Ms. Danijela Voljc, Head of International Relations Office, Ms. Klavdija Besednjak, International Relations Office, Ms. Smiljana Zajec, Head of Quality Assurance Office, Ms. Tanja Gvozdenovic, Head of Marketing office, Mr. Dusan Jerse, Head of Accounting Unit, and Ms. Zenja Kansky-Rozman, lecturer in Business English at the Faculty of Economics who delivered several lectures at the Department of English Language and Literature of Khazar University.

Khazar University was represented by: Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Dr. Jeyhun Mammadov, Dean of School of Economics and Management, Dr. Shahriyar Mukhtarov, Vice-Dean of School of Economics and Management, Dr. Elvin Mammadov, Coordinator and Lecturer, School of Economics and Management, Dr. Bahadir Baysal, Coordinator and Lecturer, School of Economics and Management, Ms. Raziya Isayeva, Director of Development Center, and Ms. Turan Jafarova, Director of International Affairs Office.

Khazar University started its cooperation with FELU in 2015 within the International Credit Mobility component of the Erasmus + Programme. Since then five students from the School of Economics and Management of Khazar University benefited from mobility opportunities within this cooperation. Each of them spent one semester at FELU. Currently, three students of Khazar University are participating in a semester-long exchange at FELU.





TƏDBİRLƏRDƏ FƏAL İŞTİRAKA GÖRƏ TƏŞƏKKÜRNAMƏ ALDILAR

CERTIFICATES OF GRATITUDE ARE ISSUED FOR ACTIVE PARTICIPATION

Xəbər verdiyimiz kimi, aprelin 20-də Xəzər Universitetinin Mərkəz kampusundakı "Dünya" konsert salonunda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının 70 illik yubileyinə həsr olunmuş "Xəzər"in sorağında" adlı ədəbi-bədii kompozisiyadan ibarət tədbir və aprelin 20-21-də "Neftçilər" kampusunda I Qloballaşan Təhsil Beynəlxalq Simpoziumu keçirilmişdi.

Aprelin 25-də professor Hamlet İsaxanlı tədbirlərin təşkilatçıları və ədəbi-bədii kompozisiyanın iştirakçılarının bir qrupu ilə görüşərək, onlara Xəzər Universitetinin təşəkkürnamələrini təqdim etmişdir.

Ümumilikdə "Xəzər"in sorağında" adlı ədəbi-bədii tədbirin və I Qloballaşan Təhsil Beynəlxalq Simpoziumunun təşkilində və keçirilməsində fəal iştiraklarına görə universitetin prorektoru İsaxan İsaxanlı, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova və assistenti Cəmilə Fərman, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Multimedia mərkəzinin direktoru Natella Barkaya, Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov, İngili dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyev, universitetin müəllimi Mail Yaqub, Kitabxana - informasiya mərkəzinin əməkdaşı Günel Nərimanova, Ümumi şöbənin koordinatoru Sevinc Məmmədli, "Dünya" məktəbinin rəssamı Mir Rafiq Əbdülrəhimov, AzTV-nin əməkdaşı Faizə Mehdiyeva, İctimai TV-nin aparıcısı Məhəmmədəli Ələkbərov, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru Təbriz Əmrahlı və aktyor Nicat Əli təşəkkürnamə ilə təltif olunublar.

As it was reported, a literary and artistic composition "Searching for Khazar" dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, 70th anniversary was held at "Dunya" concert hall of Khazar University on April 20, 2018, and the 1st International Symposium on Global Education was conducted on April 20-21, at Khazar University.

On April 25, Hamlet Isakhanli met with organizers of both events as well as participants of the literary and artistic composition and presented them with Certificates of Gratitude of Khazar University.

Dr. Isakhan Isakhanli, Vice-rector of the University, Elza Semedli, Dean of the School of Education, Lyudmila Sotova, Director of Quality Assurance Center, Jamila Farman, Assistant at Quality Assurance Center, Raziya Isayeva, Director of Development Center, Natella Barkaya, Director of Multimedia Center, Eynur Mehdiyev, Vice-chair of the Department of English Language and Literature, Mail Yagub, University Instructor, Gunel Narimanova, Associate of the Library and Information Center, Sevinj Mammadli, Coordinator of General Department, Mir Rafig Abdulrahimov, Artist of "Dunya" school, Faiza Mehdiyeva, Associate of AzTV, Mahammadli Alakbarov, Associate of "İctimai" TV, Tabriz Amrahli, Actor of Azerbaijan State Theatre of Young Spectators, and Nijat Ali, Actor, were awarded Certificates of Gratitude.






















NASA-NIN KEÇMİŞ ƏMƏKDAŞI XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 27-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı NASA-nın keçmiş əməkdaşı, hazırda "Mersedes-Benz" şirkətinin əməkdaşı, aerokosmik mühəndis, riyaziyyatçı, robotlaşdırma və avtomatlaşdırma üzrə mütəxəssis və sahibkar Dr. Teymur Sadıxovu qəbul etdi. Qəbul zamanı Xəzər Universiteti ilə gələcək plan və fəaliyyətlər müzakirə edildi.

Sonra Psixologiya departamentinin müəllimi Nilufər Əlizadənin təşkilatçılığı ilə T. Sadıxov Xəzər Universitetinin əməkdaşları və tələbələri üçün "Avtomatlaşdırma, robotlaşdırma və süni intellekt" mövzusunda seminar keçirdi.

Seminarın sonunda T.Sadıxov çoxsaylı sualları cavablandırdı.



FORMER NASA ASSOCIATE VISITS KHAZAR UNIVERSITY

On April 27, Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, received Dr Teymur Sadikhov, former NASA associate and "Mercedes-Benz" associate, aerospace engineer, mathematician, robotization and automation specialist and entrepreneur. Future collaboration and plans with Khazar University were discussed during the meeting.

Then, on organizational support by Nilufar Alizadeh, instructor of the Department of Psychology, Dr Teymur Sadikhov conducted a seminar on "Autonomous Driving, Robotics and AI", and answered participants' questions.







MİSİRLİ PROFESSOR MÜHAZİRƏ OXUDU

Aprelin 27-də Misirin Eyn Əş - Şəms Universitetinin Ətraf Mühit elmləri və Tədqiqatı İnstitutunun dekanı professor Heşam İbrahim İbrahim El-Kassas Xəzər Universitetinin "Neftçilər" kampusunda "Ətraf mühitin yaşıl bərpası" mövzusunda mühazirə ilə çıxış etdi. Mühazirə Misir Ərəb Respublikasının Bakıdakı səfirliyinin nəzdində olan Misir Mədəniyyət Mərkəzinin direktoru, həmçinin, səfirliyin Mədəniyyət işləri üzrə attaşesi Əhməd Sami Elaydinin təşəbbüsü ilə təşkil olunmuşdu.

Mühazirədə Xəzər Universitetinin yerli və xarici tələbələri, doktorantura tədqiqatçıları, həmçinin, akademik və administrativ heyəti iştirak edirdilər. Mühazirədən sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüş keçirildi.

LECTURE BY A RENOWNED PROFESSOR FROM EGYPT

On April 27, a renowned professor from Egypt delivered a lecture at Neftchiler Campus of Khazar University.

Professor Hesham Ibrahim Ibrahim El-Kassas, Dean of the Institute of Environmental Studies and Research at Ain Shams University (Egypt) delivered a lecture entitled "Green Clean-up of the Environment." The lecture was organized with the support of the Egyptian Cultural Center under the Embassy of Egypt in Baku and its Director Mr. Ahmed Sami Elaydy who is also the Cultural Attaché of the Embassy of Egypt in Azerbaijan.

The lecture was attended by local and international students of Khazar University, PhD students as well as academic and administrative staff members. The lecture was followed by a meeting with Professor Hamlet Isakhanli, Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees.





İSVEÇRƏNİN SƏFİRİ XƏZƏR UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQDAN DANIŞDI

SWITZERLAND AMBASSADOR TALKS ABOUT COLLABORATION WITH KHAZAR UNIVERSITY



Aprelin 27-də *azvision.az* xəbər saytı İsveçrənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Philipp Stalderdən müsahibə alınışdır. Səfir İsveçrənin Azərbaycanın hasilat sənayesinə böyük töhfələrindən danışarkən, Xəzər Universitetində həm Azərbaycan, həm də Mərkəzi Asiya ölkələrindən dəvət olunmuş qonaqlarla seminarlar keçirildiyini vurğulamışdır.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

https://en.azvision.az/news/85640/25-years-and-counting...-exclusive-interview-with-philipp-stalder,-ambassador-of-switzerland-to-azerbaijan.html

On April 27, Mr Philipp Stalder, Ambassador Extraordinary and Plenipotentiary of Switzerland to Azerbaijan, gave an interview to *azvision.az* news portal. Mr Philipp Stalder noted that Switzerland has contributed a lot to the Extractive Industry of Azerbaijan. He also mentioned that seminars had been organized at Khazar University in which guests from Azerbaijan and Central Asia participated.

The full interview is available via the following link:

https://en.azvision.az/news/85640/25-years-and-counting...-exclusive-interview-with-philipp-stalder,-ambassador-of-switzerland-to-azerbaijan.html





MEKSİKANIN AZƏRBAYCANDAKI SƏFİRİ TƏLƏBƏLƏRƏ MÜHAZİRƏ OXUDU

Mayın 2-də Meksikanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Rodrigo Labardini Xəzər Universitetinin tələbələri üçün mühazirə oxudu. Universitetin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkil etdiyi "Meksikanın xarici siyasət prioritetləri və Azərbaycanla qarşılıqlı münasibətləri" adlı xüsusi mühazirə departamentin koordinatoru Elmar Mustafayevin moderatorluğu ilə keçirildi. Səfir mühazirəsində Meksika dövlətinin siyasi, iqtisadi, mədəni kontekstindən, ölkənin Azərbaycanla iqtisadi və ticarət əlaqələrinin dinamikasından danışdı.

Mühazirənin sonunda cənab Labardini auditoriyanı maraqlandıran sualları cavablandırdı.

MEXICAN AMBASSADOR TO AZERBAIJAN DELIVERS A LECTURE

On May 2, Mr Rodrigo Labardini, Mexican ambassador to Azerbaijan, delivered a lecture at Khazar University. Elmar Mustafayev, Coordinator of the Department of Political Sciences and International Relations, moderated the special lecture entitled "Priorities of the foreign policy of Mexico and bilateral relations with Azerbaijan". The ambassador talked about political, economic, and cultural contexts of Mexico as well as economic and commercial relations between Mexico and Azerbaijan.

Mr Labardini also answered participants' questions at the end of the lecture.



TÜRKİYƏNİN 26-CI BAŞ QƏRARGAH RƏİSİ ORGENERAL İLKER BAŞBUĞ XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDU

Türkiyənin 26-cı Baş Qərargah rəisi (Genelkurmay Başqanı) orgeneral İlker Başbuğ Azərbaycan Xalq Cümhuriyyətinin və Milli Ordumun qurulmasının 100 illiyi münasibətilə Xəzər Universitetinin dəvəti ilə mayın 3-5 universitetin qonağı oldu.

Mayın 3-də Orgeneral İlker Başbuğ "Dünya" məktəbinin konfrans zalında tələbələrə "Milli siyasət: Türkiyə-Azərbaycan qardaşlığı" mövzusunda mühazirə oxudu. Həmin gün İlker Başbuğ Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları ilə birlikdə İçərişəhəri gəzdi, Şirvanşahlar sarayı kompleksində oldu.

Mayın 4-də orgeneral İlker Başbuğ Xəzər Universitetinin kollektivi ilə birlikdə Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ikinci prezidenti Əbülfəz Elçibəyin məzarlarını ziyarət edərək, əklil qoydu. Görkəmli oftalmoloq alim Zərifə Əliyevanın da xatirəsi yad edildi. Sonra İlker Başbuğ Xəzər Universitetinin kollektivi ilə Şəhidlər Xiyabanına gedərək, şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə əklil qoydu. Burada İlker Başbuğa 20 Yanvar faciəsi barədə ətraflı məlumat verildi. 1918-ci ildə Bakını bolşevik-daşnak qüvvələrinin işğalından azad edən Qafqaz İslam Ordusunun şəhidlərinin uyuduğu "Türk şəhidliyi"də ziyarət edilərək, əklil qoyuldu və xatirə şəkilləri çəkildi.

(*Ardı səh. 14-də*)







İLKER BAŞBUĞ, THE 26TH CHIEF OF THE GENERAL STAFF OF TURKEY, WAS A GUEST OF KHAZAR UNIVERSITY.

On May 3-5, İlker Başbuğ, the 26th Chief of the General Staff of Turkey, visited Khazar University on the occasion of the 100th anniversary of the establishment of the Azerbaijan Democratic Republic and the Azerbaijani Army.

On May 3, İlker Başbuğ delivered a lecture entitled "National policy: Turkey-Azerbaijan Brotherhood" at "Dunya" school. On the same day, İlker Başbuğ visited Icheri Sheher (Old City) and Palace of the Shirvanshahs with the leadership and staff members of Khazar University.

On May 4, İlker Başbuğ, together with associates of Khazar University, visited Alley of Honor to pay tribute to the memories of Heydar Aliyev, National Leader and Abulfaz Elchibey, the second President of the Republic of Azerbaijan as well as Zarifa Aliyeva, a prominent ophthalmologist. Then, İlker Başbuğ, together with associates of Khazar University, paid a visit to Martyrs' Alley and laid a wreath at the monument erected in memory of Martyrs. İlker Başbuğ was informed about Martyrs of 20 January tragedy. Moreover, İlker Başbuğ visited "Turkish Martyrdom" where Martyrs of Islamic Army of the Caucasus are buried, and laid a wreath at the memorial. Memory photos were taken.

(To be continued on page 15)





Xəzər Universitəsi

ELM VƏ SƏNƏT MƏCLİSİ







Həmin gün Xəzər Universitetinin "Neftçilər" kampusunda "Elm və Sənət Məclisi"nin 67-ci görüşündə İlkər Başbuğ "Yaxın Şərq və Türkiyə" mövzusunda çıxış etdi, çoxsaylı sualları cavablandırdı. Həm "Dünya" məktəbində, həm də Xəzər Universitetində keçirilən təbirlərdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, Türkiyə və Azərbaycanın qardaşlıq əlaqələrindən, Xəzər Universiteti ilə Türkiyənin bir sıra universitetləri arasında geniş işgüzar əməkdaşlığın yaranmasından və inkişaf etdirilməsindən danışdı. Professor Hamlet İsaxanlı İlkər Başbuğa Xəzər Universiteti adından hədiyyə təqdim etdi.

Xəzər Universitetində təşkil olunmuş hər iki tədbir özəl və dövlət televizyaları tərəfindən işıqlandırıldı.

Mayın 5-də İlkər Başbuğ Miniatür Kitab Muzeyində oldu, muzeyin təsisçisi və direktoru Zərifə Salahovanın xahişi ilə rəy dəftərinə ürək sözlərini yazdı.

(Ardı səh. 17-də)







On the same day, in the 67th meeting of "Science and Art Assembly" at Khazar University, İlker Başbuğ delivered a report entitled "The Middle East and Turkey", and answered the participants' questions. In the meetings held both at "Dunya" school and Khazar University, Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, talked about the relationship between Azerbaijan and Turkey, and mentioned cooperation of Khazar University with Turkish Universities. On behalf of Khazar University, Prof. Hamlet Isakhanli presented gifts to İlker Başbuğ. Both ceremonies held at Khazar University were covered by public and private TV channels.

On May 5, İlker Başbuğ visited the Museum of Miniature Books, and on request of the founder and director, Zarifa Salahova, inscribed his sincere comments in the review book of the museum.

(To be continued on page 17)














Orgeneral İlkər Başbuğu tədbirlərdə Xəzər Universiteti Təhsil fakültəsinin dekanı dosent Elza Səmədova və Türkiyə Böyükelçiliyinin nümayəndələri müşayiət etmişlər.

Qeyd edək ki, Orgeneral İlkər Başbuğ "Terör Örgütlerinin Sonu" (2011), "20.Yüzyılın En Büyük Lideri Atatürk" (2012), "Suçlamalara Karşı Gerçekler" (2013), "Nasıl Bir Türkiye" (2015), "Ermeni Suçlamaları ve Gerçekler" (2015), "Unutulan Ada Kıbrıs" (2016), "15 Temmuz Öncesi ve Sonrası" (2016), "Sorunlarla Yüzleşmek" (2017), "Osmanlı`dan Cumhuriyete Güç Odaklarının mücadelesi" (2018) adlı kitabların müəllifi və 2017-ci ildə Mustafa Kamal Atatürkə həsr olunmuş "Mucize" adlı pyesi ilə "İsmet Küntay-En İyi Oyun Yazarı" mükafatının laureatıdır.


2008-2010-cu illərdə Baş Qərargah rəisi (Genelkurmay Başkanı) olan orgeneral İlkər Başbuğ 2010-cu il avqustun 30-dan təqaüddədir.

Assoc.Prof. Elza Samadova, Dean of the School of Education, and associates of Turkish Embassy accompanied İlkər Başbuğ in all ceremonies.

İlkər Başbuğ is an author of the following books: "The End of Terrorist Organizations" (2011), "Ataturk, the Greatest Leader of 20th Century" (2012), "Facts Against Accusations" (2013), "What kind of Turkey" (2015), "Accusations of Armenians and Facts"(2015), "Cyprus, Forgotten Island" (2016), "Before and After July 15" (2016), "Facing Problems" (2017), and "Struggle of Ottoman Powers against the Republic" (2018). İlkər Başbuğ is a laureate of "İsmet Küntay-En İyi Oyun Yazarı" for his play "*Miracle*" which is dedicated to Mustafa Kemal Ataturk.

İlkər Başbuğ was the Chief of the General Staff of Turkey from 2008 to 2010. He took retirement on August 30, 2010.







PROFESSOR HAMLET İSAXANLININ İSTANBUL AYDIN UNİVERSİTETİNDƏ 70 İLLİK YUBİLEYİ KEÇİRİLDİ

Mayın 7-də Türkiyənin İstanbul şəhərində yerləşən İstanbul Aydın Universitetində EURAS, İstanbul Aydın Universiteti və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının 70 illik yubileyinə həsr edilmiş "Hamlet İsaxanlının əsərləri səsləndirilir" adlı ədəbi-bədii gecə keçirildi.

Gecədə Azərbaycan Respublikasının xalq artistləri Azər Zeynalov, Brilyant Dadaşova, Gülyanaq Məmmədova, əməkdar artist Səbinə Verdiyeva, gənc vokalistlər Gülşən İbadova və Atəş Qarayevin ifasında Hamlet İsaxanlının sözlərinə yazılmış mahnılar, Sumqayıt "Dünya" məktəbinin rəqs müəllimi Cəmilə Məlikovanın rəqsi və Xəzər Universiteti "Dünya" məktəbinin müəllimləri Elşad Rzayev, Arzu Ömərova, Mədinə Karahan və Afaq Qəmbərovanın hazırladıqları ədəbi-bədii proqram tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı. Saz ustası Cahangir Quluyevin Hamlet İsaxanlının şeirlərinə bəstələdiyi və ifa etdiyi yeni mahnılar tamaşaçıların böyük marağına səbəb oldu. Mədəniyyət və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərlik etdiyi Kamera orkestrinin ifası da alqışlarla qarşılandı.

Uzun sürən bədii gecənin sonunda İstanbul Aydın Universitetinin prorektoru professor Orhun Canpolat yubiliyarı səhnəyə dəvət etdi. O.Canpolat EURAS və İstanbul Aydın Universiteti adından Hamlet İsaxanlıya doğum günü münasibətilə təbriklərini çatdırdı və ona hədiyyə təqdim etdi.

(*Ardı səh. 20-də*)







PROF. HAMLET ISAKHANLI'S 70TH ANNIVERSARY CELEBRATED AT ISTANBUL AYDIN UNIVERSITY

On May 7, a literary and artistic evening entitled "Works by Hamlet Isakhanli" dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, 70th anniversary was held at Istanbul Aydın University, in Istanbul city of Turkey, on an organizational support of EURAS, Istanbul Aydın University and Khazar University.

Azer Zeynalov, Brilliant Dadashova, Gulyanag Mammadova - People's Artists; Sabina Verdiyeva-Honored Artists, Gulshan Ibadova, and Ateah Garayev sang the songs composed to lyrics by Hamlet Isakhanli. The audience also welcomed the dance of Jamila Malikova, the dance instructor of Dunya school, the literary and artistic program organized by Elshad Rzayev, Arzu Omarova, Madina Karahan and Afag Gambarova - teachers of "Dunya" school.

The audience appreciated new songs by Jahangir Guluyev, a saz player, which are composed to the lyrics by Hamlet Isakhanli. Chamber Orchestra, led by Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, also performed a concert program. Prof. Orhun Janpolat, Vice-dean of Istanbul Aydın University, invited Hamlet Isakhanli to the stage. He congratulated Hamlet Isakhanli on behalf of EURAS and Istanbul Aydın University and presented gifts to him.

(To be continued on page 21)









Sonda Hamlet İsaxanlı bütün qonaqlara və təşkilatçılara təşəkkürünü bildirdi və şeirlərini oxudu. Həmin gün axşam Xəzər Universiteti adından proqramda iştirak edən qonaqlar, dostlar və iştirakçılar üçün ziyafət məclisi təşkil edildi. Ziyafətdə Koç Universiteti, İstanbul Aydın Universiteti, İstanbul Yıldız Teknik Universiteti, Kahraman Maraş Sütçü İmam Üniversitetləri, İstanbul Üniversiteti, Mərmərə Universiteti və digər universitetlərdən gələn elm adamları iştirak etdilər. Ziyafət məclisində iştirak edən qonaqlar Hamlet İsaxanlının şərəfinə xoş sözlər söylədilər...

İstanbul Aydın Universitetindəki yubiley tədbirində iştirak edən heyət Atatürk Hava Limanından Bakıya dönməli idi. Lakin məlum olmayan səbəblərdən təyyarənin bir müddət gecikəcəyi haqqında xəbər verildi. Gecə saat on idi. Hər kəs yorğun görünürdü. Kamera orkestrinin üzvləri ilə birlikdə musiqili flaşmob göstərilməsinə qərar verildi. Kamera Orkestrinin bir qrup üzvünün iştirakı ilə səsləndirilən ölməz bəstəkarımız Üzeyir Hacıbəylinin "Arazbarı"sı Atatürk Hava Limanını bürüdü. Gözləmə salonunda sərnişinlər və orada çalışanlar musiqili flaşmobu ayaq üstündə sürəkli alqışlarla qarşıladılar. Atatürk Hava Limanında səsləndilən musiqili flaşmob sosial şəbəkələrdə böyük marağa səbəb oldu.





At the end of the ceremony, Hamlet Isakhanli expressed his gratitude to the guests and organizers, and recited his own poems. In the evening, a banquet was organized by Khazar University for the guests and participants. Scientists of Koç University, Istanbul Aydın University, Istanbul Yıldız Technical University, Kahramanmaraş Sütçüimam University, Istanbul University, and Marmara University participated in the reception, and congratulated and praised Hamlet Isakhanli.

Delegation participating in jubilee ceremony in Istanbul Aydın University were supposed to fly back to Baku via Ataturk Airport. However, due to some unknown reasons the flight was cancelled for some time. It was 10 p.m and everybody was tired. It was decided to demonstrate flash mob together with the members of Chamber Orchestra. "Arazbarı" by famous composer Uzeyir Hajibeyov performed by some members of Chamber Orchestra surrounded the airport. Passengers and airport staff applauded the flash mob loudly. The video of the flash mob went viral on the social network.





KARYERA MƏRKƏZİ KÖNÜLLÜLƏRİ SEÇDİ

Mayın 1-dən Xəzər Universiteti Karyera mərkəzində 7 nəfər könüllü tələbə fəaliyyətə başladı. Könüllülər 1 ay ərzində mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Onlar, eləcə də, Karyera Sərgisinə hazırlıq prosesində bütün tələbələrlə ünsiyyətdə olacaqlar. Könüllülük proqramı müddətində hər bir tələbə ixtisasına uyğun praktiki bacarıqlardan da istifadə edəcək.

Proqramı uğurla bitirən tələbələrə Karyera mərkəzi tərəfindən sertifikat təqdim olunacaq.

Könüllülük proqramına seçilmiş tələbələr: Mustafa Həsənli (Mühəndislik və tətbiqi elmlər fakültəsi); Toğrul Nəbiyev, Nigar Quliyeva, Ziyadxan Tağıyev, Cavid Hüseynli, Aytac Ağayeva (İqtisadiyyat və menecment fakültəsi); Rəsmin Məsimova (Təhsil fakültəsi).

VOLUNTEERS OF CAREER CENTER


On May 1, 7 students started working as volunteers for Career Center of Khazar University. The volunteers will have an opportunity to become closely familiar with Career Center during one month, and will also be in direct contact with all students of Khazar University through the process of organization for Career Exhibition. Volunteering program will also allow each student to use practical skills in accordance with their profession.

Students successfully finishing the program will be certified by Career Center. Volunteers are as follows: Mustafa Hasanli (School of Engineering and Applied Sciences); Toghrul Nabiyev, Nigar Guliyeva, Ziyadkhan Taghiyev, Javid Huseynli, Aytaj Aghayev (School of Economics and Management); Rasmin Masimova (School of Education).

PROFESSOR HAMLET İSAXANLININ HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB ÇAP EDİLİB

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Təhsil İnstitutunun əməkdaşı Aytac Paşayeva ilə birgə hazırladığı "*Ali təhsilin transformasiyası, institusional fərqliliklər və ali təhsil institutlarının tipologiyası*" adlı məqalə "*Keçmiş Sovet İttifaqı ölkələrində ali təhsil sisteminin 25 illik transformasiyası*" kitabına (s. 97-121) daxil edilmişdir. Bu kitab keçmiş Sovet İttifaqı ölkələrinin ali təhsil müəssisələrində baş verən dəyişikliklərə dair ilk dərin araşdırma aparan qlobal layihə sayılır.

Kitab, həmçinin, vahid Sovet modelinin fərqli milli təhsil sistemlərinə necə çevrildiyini araşdırır. Bu nəşr son 25 il ərzində regionda aparılan islahatlar və dəyişikliklərin hərtərəfli təhlili ilə fərqlənir, Sovetdən öncə, Sovetlər və post-Sovet dövründə qurulan və inkişaf edən institusional modellərin təkamülü vasitəsilə institusional mənzərə üzərində dayanır. SSRİ-nin 15 ölkəsini əhatə edən bu kitab postsovet sistemlərində institusional mənzərənin transformasiyasını müqayisəli təhlil edir. Ali təhsil və sosiologiya sahələrində, xüsusən tarix və müqayisəli tədqiqatlarla maraqlanan tələbələr və tədqiqatçılar üçün olduqca dəyərli vəsaitdir.



Kitab "*Palgrave-in Qlobal Ali Təhsil Sahəsində Araşdırmaları*" seriyası altında nəşr edilmişdir və qeyd olunan keçiddə, *palgrave.com* saytında ödənişsiz yükləmək üçün elektron variant da mövcuddur:

https://www.palgrave.com/us/book/9783319529790

THE BOOK CO-AUTHORED BY PROFESSOR HAMLET ISAKHANLI PUBLISHED

The book "*25 Years of Transformations of Higher Education Systems in Post-Soviet Countries*" is published by International Publishing House "*Palgrave Macmillan*", 2018. The Chapter on "*Higher Education Transformation, Institutional Diversity and Typology of Higher Education Institutions in Azerbaijan*" co-authored by Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees Professor Hamlet Isakhanli together with Ms. Aytaj Pashayeva of Education Institution of the Republic of Azerbaijan was included in the book (p. 97-121).

The publication investigates how the single Soviet model evolved into the diverse range of national education systems. It is distinctive as it presents a comprehensive analysis of the reforms and transformations in the region in the last 25 years; and it focuses on institutional landscape through the evolution of the institutional types established and developed in Pre-Soviet, Soviet and Post-Soviet time. The book also embraces all fifteen countries of the former USSR and provides a comparative analysis of transformations of institutional landscape across Post-Soviet systems. It will be highly relevant for students and researchers in the fields of higher education and sociology, particularly those with an interest in historical and comparative studies.

The book is published under the "*Palgrave Studies in Global Higher Education*" series. It is available as an eBook for free download at palgrave.com in the link below:

https://www.palgrave.com/us/book/9783319529790



TARİXÇİLƏR QALA ARXEOLOJİ - ETNOQRAFİK MUZEY KOMPLEKSİNDƏ

HISTORY STUDENTS AT GALA ARCHAEOLOGICAL AND ETHNOGRAPHIC MUSEUM COMPLEX

Mayın 7-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı və departamentin müəllimi Samirə Qarayeva, departament assistenti Akifə Cəfərli və Təhsil fakültəsinin dekan müavini Aygün Verdiyevanın rəhbərliyi ilə birinci kurs tarix müəllimliyi ixtisasının tələbələri Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində ekskursiyada oldular. Muzey bələdçisi tələbələrə maraqlı məlumatlar verdi.

İlk dəfə müzeydə olan tələbələr açıq səma altında yerləşən müzeyi gəzdilər və buradakı eksponatlara tanış oldular.

On May 7, on an organizational support of the Department of History and Archeology of Khazar University, 1st year students majoring in History Studies went on an excursion to Gala Archaeological and Ethnographic Museum Complex. The excursion was led by Samira Garayeva, Instructor of the Department, Akifa Jafarli, Assistant at the Department, and Aygun Verdiyeva, Vice-dean of the School of Education. The museum guide provided the students with interesting information.

The students strolled around the museum in the open air and got familiar with the exhibits.





















BELÇİKA SƏFİRİNİN XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏSİ

AMBASSADOR OF BELGIUM TO AZERBAIJAN DELIVERS A LECTURE AT KHAZAR UNIVERSITY

Mayın 8-də Avropa Günü ilə əlaqədar Belçikanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Bert Schoofs Xəzər Universitetinin tələbələri üçün "*Belçikanın federativ idarəetmə sistemi və Avropa İttifaqında rolu*" adlı xüsusi mühazirə oxudu.

Mühazirəni Siyasi elm və beynəlxalq münasibətlər departamenti təşkil etmişdi. Görüşdə tələbələrə Belçikanın tarixi, mədəniyyəti, xarici siyasətinin prioritetləri, iqtisadiyyat və təhsil sistemi, həmçinin, ölkənin Avropa İttifaqı, NATO, ATƏT, BMT kimi beynəlxalq və regional təşkilatlarda rolu haqqında məlumat verildi.

Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayevin moderatorluğu ilə keçirilən müzakirə sual-cavab sessiyası ilə başa çatdı.

On May 8, on the occasion of Europe Day, the Ambassador of Belgium to Azerbaijan Mr. Bert Schoofs delivered a lecture for the students of Khazar University. A special lecture of Belgium's Ambassador, entitled "*Belgium's multi-layered structure of governance and its role in the EU*", was organized within the Ambassador Lecture Series of Political Science and International Relations Department of Khazar University. During the meeting, the students were informed on history, culture, priorities of foreign policy, economy, education system of Belgium and its multilateral affairs in the context of the EU, NATO, OSCE, UN.

The meeting ended with a question-and-answer session headed by Elmar Mustafayev, Coordinator of Political Science and International Relations Department.



PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI TÜRKİYƏDƏ

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə mayın 5-dən 7-dək Türkiyənin İstanbul şəhərində "Yeşil Işık Eğitim və Psikolojik Danışmanlık" və "PAREM Psikoloji, Analiz və Rehberlik" mərkəzlərində oldu. "Uşaqlarda davranış problemləri və həll yolları" adlı təhsil proqramına qatılan Nilufər Əlizadə daha sonra "Proyektiv testlərin tətbiqi və tədrisi" adlı seminarı uğurla başa vuraraq tətbiqetmə və tədris sertifikatları ilə təltif olundu.

Qeyd edək ki, tədris proqramlarından sonra mərkəzdə fəaliyyət göstərən peşəkar psixoloqlar ilə Xəzər Universitetinin Psixologiya departamentinin gələcək işləri və əməkdaşlıqlar haqqında müzakirələr oldu.

ASSOCIATE OF THE DEPARTMENT OF PSYCHOLOGY VISITS TURKEY

On May 5-7, Nilufar Alizadeh, an associate of the Department of Psychology of Khazar University, visited "Green Light Training and Psychological Counseling" Center and "PAREM Psychology, Analysis and Leadership" Center in Istanbul, Turkey. Nilufar Alizadeh joined the education program ***"Behavioral problems in children and solutions"***. She also participated in a workshop ***"Application and teaching of projective tests"*** and was certified for successful completion.

After training programs, Nilufar Alizadeh discussed future collaborations between the Department of Psychology of Khazar University and the center with professional psychologists.



ƏLİLLİYİ OLAN TƏLƏBƏLƏR ÜÇÜN MƏRKƏZİN KOORDİNATORU İŞGÜZAR SƏFƏRDƏ

Mayın 8-də Xəzər Universitetinin Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova ABŞ-ın Nevada Universitetinin Əlilliyi olan Şəxslər üçün Resurs Mərkəzində oldu və Mərkəzin direktor assistenti Meri Anni Kristensen ilə görüşdü. O, görüş zamanı Nevada Universitetinin Əlilliyi olan Şəxslər üçün Resurs Mərkəzinin fəaliyyəti ilə tanış oldu və Xəzər Universitetində fəaliyyət göstərən Əlilliyi olan Tələbələr üçün Mərkəz haqqında məlumat verdi.

BUSINESS TRIP OF COORDINATOR OF CENTER FOR STUDENTS WITH DISABILITIES TO THE USA

On May 8, Rima Mammadova, Coordinator of the Center for Students with Disabilities of Khazar University, visited Disability Resource Center of Nevada University and met with Mary Anne Christensen, Director of the Center. During the meeting, Rima Mammadova became familiar with Disability Resource Center of Nevada University and gave information about Center for Students with Disabilities at Khazar University.



"AVROPA MƏDƏNİYYƏTİ VƏ İNCƏSƏNƏTİ" DƏRSİ QOBUSTANDA KEÇİRİLDİ

LESSON OF THE SUBJECT "EUROPEAN CULTURE AND ART" CONDUCTED IN GOBUSTAN

Mayın 8-də Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müəllimi Gülşən Kəngərlinskaya regionşünaslıq ixtisasının 1-ci kurs tələbələri üçün "Avropa mədəniyyəti və incəsənəti" dərsini Azərbaycan və dünyanın nadir tarixi-mədəniyyət abidə kompleksi olan Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda keçdi. Dərsdə Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilov, dekan müavini Valida Kərimova, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev iştirak edirdilər.

Açıq dərsin Qobustanda keçirilməsinin məqsədi tələbələrin dünyagörüşü və tarixi biliklərini artırmaq, onların Azərbaycanın maddi-mədəni irsi ilə bilavasitə tanışlığını təmin etmək idi. Tələbələrə Böyükdaş dağında qədim mağaralar, qayaüstü təsvirlər, ibtidai insanın ocaq və yaşayış yeri, landşaftın özünəməxsusluğu göstərildi, sonra isə yeni yaradılmış interaktiv muzeydə bələdçi tərəfindən dünya və Azərbaycanın petroqlifləri, onların öyrənilməsi və coğrafiyası, bölgənin qədim iqlimi və landşaftı, fauna və florası, ibtidai insanın fəaliyyəti və həyat tərzi haqqında geniş ekskursiya təşkil olundu.

Azərbaycanın arxeoloji inkişafı tarixi və maddi-mədəni irsinin öyrənilməsi üçün bu dərs çox əhəmiyyətli idi.

On May 8, one lesson of the subject "European Culture and Art" was conducted in Gobustan State Historical and Artistic Reserve, one of the unique historical and cultural monuments of Azerbaijan and of the world. The first year students of the School of Humanities and Social Sciences were led by Assoc.Prof. Jabir Khalilov, Dean, Valida Karimova, Vice-dean, Elmar Mustafayev, Coordinator of Political Sciences and International Relations, and Gulshan Kangarli, Instructor of the Department.

The aim of the open lesson was to enlighten students about the material and cultural heritage of Azerbaijan and broaden their world view and theoretical knowledge. Students saw ancient caves, rock paintings, fireplaces and habitation of the primitive man, and the uniqueness of the landscape in Boyukdash mountain. Then students went on an excursion in a newly founded interactive museum led by a guide and got familiar with petroglyphs of Azerbaijan and of the world, the ancient climate and landscape of the region, the fauna and flora, and the activities and lifestyle of the primitive man.

This lesson was of great importance in terms of studying the history of the archaeological development of Azerbaijan and its material and cultural heritage.



KARYERA MƏRKƏZİNİN MƏLUMAT SESSİYASI

Mayın 8-i və 10-da Xəzər Universiteti Karyera mərkəzinin məlumat sessiyası keçirildi. Karyera mərkəzinin könüllüləri Karyera Sərgisinə hazırlıq prosesi və mərkəzin fəaliyyəti barədə yerli və xarici tələbələrə məlumat verdilər.

Tələbələr təlim prosesindən keçmək üçün qeydiyyatdan keçdilər, mərkəzin tədbirlər cədvəli ilə də yaxından tanış oldular.

INFORMATION SESSION BY CAREER CENTER

On May 8 and 10, Career Center of Khazar University held an information session. Volunteers of Career Center local and international students about services of Career Center and organization process for Career Exhibition.

Students were registered for training and became familiar with the events to be organized by the center.

"XƏZƏR UNİVERSİTETİNİN YAXŞI TƏCRÜBƏSİ VAR"

2018-ci il mayın 11-də *mektebgushesi.az* saytı Azərbaycan təhsilinin hazırkı vəziyyəti ilə bağlı təhsil eksperti Əhməd Qəşəmoğlunun fikirlərinə yer ayırmışdır. Ə.Qəşəmoğlu Xəzər Universitetini Azərbaycan təhsili üçün yaxşı bir model kimi vurğulamışdır.

Materialı tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://mektebgushesi.az/2018/05/11/əhməd-qəsəmoglu-təhsil-modeli-hazirlamisam-orada-her-sey-nəzərə-alinib/

KHAZAR UNIVERSITY HAS GOOD EXPERIENCE

On May 11, 2018, *mektebgushesi.az* website posted views by Ahmad Gashamoghlu, education expert, on the current state of the education in Azerbaijan. In his speech, Ahmad Gashamoghlu stressed Khazar University as an exemplary model for the education of Azerbaijan.

The material is available at:

http://mektebgushesi.az/2018/05/11/əhməd-qəsəmoglu-təhsil-modeli-hazirlamisam-orada-her-sey-nəzərə-alinib/



XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ FHN - İN TƏDBİRİNDƏ

KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA AT THE EVENT OF THE MINISTRY OF EMERGENCY SITUATIONS

Mayın 11-də Fövqəladə Hallar Nazirliyi (FHN) işçilərinin həmkarlar ittifaqının təşkilatçılığı ilə Ağdam rayon mədəniyyət evində ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Ümummilli lider Heydər Əliyev və Dağlıq Qarabağ" mövzusunda konfrans keçirilib.

FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov tədbiri açaraq ümummilli lider Heydər Əliyevin keçdiyi şərəfli və mənalı həyat yoluna tarixi-xronoloji nəzər salıb, dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi 34 illik dövrdə gördüyü işlərin əhəmiyyətindən danışıb.

Fövqəladə Hallar Nazirliyi Qarabağ Regional Mərkəzinin rəisi, polkovnik Mirəli Feyziyev, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov çıxışlarında Azərbaycan xalqının böyük oğlunun dövlətçiliyimizin möhkəmləndirilməsi, Qarabağın milli-mədəni sərvətlərinin mühafizəsi ilə bağlı həyata keçirdiyi tarixi tədbirlərdən söz açıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün göstərdiyi əvəzsiz xidmətlərdən söz açıblar.

Sonra tədbir konsert proqramı ilə davam edib. Konsert proqramında Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi və gənc istedadlı musiqiçi Cavad Tağızadənin dirijorluqu, solistlər – Xəzər universitetinin müəllimi Məhəsti Cabbarova və Atəş Qarayevin iştirakı ilə universitetin Kamera orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri dinlənilib.

On May 11, a conference entitled "National Leader Heydar Aliyev and Nagorno-Karabakh" dedicated to 95th jubilee of National Leader, Heydar Aliyev, was held in the center for culture of Aghdam district on an organizational support of trade union of Ministry of Emergency Situations (MES).

Mehman Ismayilov, Chair of the trade union of MES, opened the conference with a historical and chronological view on Heydar Aliyev's honorable and meaningful life. He also emphasized the importance of contributions by Heydar Aliyev during his 34 years when he led Azerbaijan.

Colonel Mirali Feyziyev, Head of the Karabakh Regional Center of the Ministry of Emergency Situations, and Ragub Mammadov, Head of Aghdam District Executive Power, talked about how Heydar Aliyev strengthened statehood of Azerbaijan and did his best to reserve national and cultural wealth of Garabagh. Speakers also mentioned Heydar Aliyev's indispensable service for resolutions of the Nagorno-Karabakh conflict.

The ceremony continued with a concert program. Khazar University Chamber Orchestra performed compositions by Azerbaijani composers led by Zulfiyya Sadigova, Honored Artist and Head of the Department of Music and Fine Arts of Khazar University. The Orchestra was conducted by Javad Taghizadeh, a young musician. The soloists were Mashati Jabbariva and Atesh Garayev.

PROFESSOR HAMLET İSAXANLININ TƏRTİBÇİSİ OLDUĞU, İRANDA ÇAP OLUNMUŞ "AZƏRBAYCAN SEVGİ ŞEİRLƏRİ" ADLI KİTAB TEHRAN BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ NÜMAYİŞ ETDİRİLMİŞDİR

THE BOOK "AZERBAIJANI LOVE POEMS", COMPILED BY PROF. HAMLET ISAKHANLI AND PUBLISHED IN IRAN, IS DEMONSTRATED AT TEHRAN INTERNATIONAL BOOK FAIR

نمایشگاه بین‌المللی کتاب تهران
Tehran International Book fair
معرض طهران الدولي للكتاب

Mayın 2-12-də Tehranda keçirilmiş 31-ci Tehran Beynəlxalq Kitab Sərgisində İranın Azər-Türk nəşriyyatı da öz pavilyonu ilə iştirak etmişdir. Eynullah Şərifpurun başçılığı ilə pavilyonda nəşriyyatın çap etdiyi kitablar nümayiş və satılmışdır.

Sərgidə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının tərtibçisi olduğu "Azərbaycan sevgi poeziyası" kitabının 2015-ci ildə İranda Azər-Türk nəşriyyatı tərəfindən "Azərbaycan sevgi şeirləri" adı ilə çap olunmuş nüsxələri də nümayiş etdirilmişdir. 296 səhifəlik kitab min nüsxə tirajla buraxılmışdır.

Qeyd edək ki, professor Hamlet İsaxanlının tərtib etdiyi üç cildlik "Azərbaycan sevgi poeziyası" kitabı 2008-2009-cu illərdə Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxıb.

2014-cü ildə fəaliyyətə başlamış Azər-Türk nəşriyyatı indiyədək İsmayıl Şıxlı, Ramiz Rövşən, Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Söhrab Tahir, Səid Qurban, Molla Pənah Vaqif, Məmməd Araz kimi ədiblərin əsərlərini də nəşr edib. Azər-Türk nəşriyyatı bu ilin fevral ayında İranın Qum şəhərində keçirilmiş kitab sərgisində də öz pavilyonu ilə iştirak etmişdi.

Bu barədə məlumatı aşağıdakı linklərdə oxumaq olar:

http://www.bbc.com/azeri/region-44066739#Kalibri

https://www.gisoom.com/book/11259019/%DA%A9%D8%AA%D8%A7%D8%A8-%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86-%D8%B3% D8%A6%D9%88%DA%AF%DB%8C-%D8%B4%D8%B9%D8%B1%D9%84%D8%B1%DB%8C/

On May 2-11, Azer-Turk publishing house of Iran participated in Tehran International Book Fair. The books published by Azer-Turk publishing house were demonstrated and sold under Eynullah Sharifpur's guidance.

In the Book Fair, the copies of the book "Azerbaijani love poems" published by Azer-Turk publishing house in 2015 were demonstrated. The book was previously published under name "Azerbaijani love poetry" which was compiled by Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees. "Azerbaijani love poems" contains 296 pages and has been published in one thousand copies.

The three-volume book "Azerbaijani love poems", compiled by Prof. Hamlet Isakhanli, was released by Khazar University Publishing House in 2008-2009.

Azer-Turk publishing house, founded in 2014, has published works by Ismayil Shikhli, Ramiz Rovshan, Hamlet Isaxanli, Yusif Vazir Chamanzaminli, Mammad Said Ordubadi, Sahrab Tahir, Said Gurban, Molla Panah Vagif, and Mammad Araz. Azer-Turk publishing house also joined book fair held in Qom city, Iran, in February, 2018.

The information is available at:

http://www.bbc.com/azeri/region-44066739#Kalibri

https://www.gisoom.com/book/11259019/%DA%A9%D8%AA%D8%A7%D8%A8-%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86-%D8%B3%D8%A6%D9%88%DA%AF%DB%8C-%D8%B4%D8%B9%D8%B1%D9%84%D8%B1%DB%8C/





"TƏLİM VƏ TƏDRİS STRATEGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ" MÖVZUSUNDA SEMİNAR

SEMINAR ON "DEVELOPMENT OF LEARNING AND TEACHING STRATEGIES"

Aprelin 12-də Xəzər Universitetində PETRA Erasmus+ layihəsi çərçivəsində "Təlim və tədris strategiyasının təkmilləşdirilməsi" mövzusunda seminar keçirildi. 7 ali təhsil müəssisəsindən (Xəzər Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Slavyan Universiteti və Naxçıvan Dövlət Universiteti) olan iştirakçılar təlim və tədris strategiyası üzrə təqdimatlarla çıxış etdilər və təqdimatlar əsasında müzakirələr keçirildi.

Təhsil Nazirliyinin nümayəndəsi Yaşar Ömərovun iştirakı ilə layihə çərçivəsində nəzərdə tutulan planlar və ali təhsil müəssisələrində bu layihənin icrasından irəli gələn çətinliklərin aradan qaldırılması yolları müzakirə olundu.


On April 12, a seminar on "Development of Learning and Teaching Strategies" was held at Khazar University within PETRA Erasmus+ project. Representatives of 7 universities (Khazar University, Azerbaijan University of Languages, Azerbaijan University, Azerbaijan State Pedagogical University, Nakhchivan State University, Baku Slavic University and Nakhchivan University) made presentations on learning and teaching strategies and held discussions.

Yashar Omarov, a representative of the Ministry of Education, also joined the discussions on further plans within the project and methods of dealing with challenges to be faced at universities when implementing the project.









"AZƏRBAYCAN PARLAMENTARİZMİ TARİXİ – 100" ADLI KİTAB ÇAP OLUNUB

A RESEARCH WORK "HISTORY OF AZERBAIJANI PARLIAMENTARISM - 100" PUBLISHED

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Ziyad Əmrahovun "Azərbaycan parlamentarizmi tarixi – 100" adlı tədqiqat əsəri çapdan çıxıb.

Kitabda tarixi Azərbaycan ərazilərinin Qacarlar və Çar Rusiyası arasında ikiyə parçalanmasından sonra Azərbaycan aydınlarının müstəqillik uğrunda mübarizə mərhələləri, 1917-ci ildə Çar Rusiyasının dağılmasından sonra Azərbaycanda ilk respublika quruluşunun, Xalq Cümhuriyyətinin yaradılması və Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin çıxardığı qanun və qərarlar, eləcə də, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra Azərbaycan SSR qanunvericilik orqanının formal müstəqilliyi, Azərbaycan Parlamentarizmi tarixində Müvəqqəti İnqilab Komitəsi, Ümumazərbaycan Sovetlər qurultayları, Mərkəzi İcraiyyə Komitəsi, Azərbaycan SSR Ali Sovetinin fəaliyyəti, çıxardığı qanun və qərarlar arxiv sənədləri, dövri mətbuat və tarixi ədəbiyyat əsasında tədqiq edilmişdir.

Tədqiqat əsəri Azərbaycan tarixi, beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, eləcə də geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.

A research work "History of Azerbaijani Parliamentarism - 100" by Ziyad Amrahov, instructor of the Department of History and Archeology of Khazar University and PhD in History, was presented to readers.

The book covers the following topics: struggle for independence of Azerbaijani intellectuals after division of Azerbaijan between the the Gajars and the Russian Empire; establishment of the first republic in Azerbaijan after the collapse of the Russian Empire; laws and regulations by the Parliament of the Azerbaijan Democratic Republic; formal independence of the legislative body of Azerbaijan SSR after invasion of Azerbaijan; Temporary Revolutionary Committee in history of Azerbaijani Parliamentarism; Azerbaijan Soviet congresses; Central Executive Committee; activity of the Supreme Soviet of the Azerbaijan SSR and its laws and regulations. All the above mentioned topics were studied based on archive documents, press and historical literature. The research work is meant for experts in the history of Azerbaijan and history of International Relations as well as ordinary readers.





PETRA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ XƏZƏR UNİVERSİTETİNDƏ GÖRÜŞ

MEETING WITHIN PETRA PROJECT AT KHAZAR UNIVERSITY

Aprelin 18-19-da Xəzər Universitetində ERASMUS+ layihəsi çərçivəsində növbəti idarəetmə görüşü keçirildi.

Tədbirdə tərəfdaş universitetlərin - Azərbaycandan Xəzər Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Universiteti, Avropa ölkələrindən Qazi Universiteti (Türkiyə), Debrecen Universiteti (Macarıstan), Valensiya Politexnik Universiteti (İspaniya) və Vyana Tətbiqi Elmlər Universiteti (Avstriya) və Jyväskylä Universitetindən (Finlandiya) olan 30-a yaxın nümayəndə iştirak etdirdi.

Görüşdə layihənin gedişi, indiyə qədər görülən işlər, layihə çərçivəsində Azərbaycan universitetlərində Təlim və Tədris Mərkəzinin (Teaching and Learning Centre) yaradılması, layihə çərçivəsindəki konfranslar və görüləcək işlər haqqında müzakirələr aparıldı.

On April 18 - 19, the next management meeting was held at Khazar University within ERASMUS+ project.

About 30 representatives from partner universities - Khazar University, Nakhchivan State University, Ganja State University, Sumgayit State University, Baku Slavic University, Azerbaijan University of Languages, Azerbaijan State Pedagogical University, Azerbaijan University as well as representatives of partner universities from Europe - Gazi University (Turkey), Debrecen University (Hungary), Valencia Polytechnic University (Spain), Vienna University of Applied Sciences (Austria), and Jyväskylä University (Finland) - participated at the meeting.

During the two-day meeting, representatives discussed the current situation of the project, the establishment of a Teaching and Learning Centre at universities of Azerbaijan and conferences and other events to be held within the project.









DOKTORANTIN ELMİ İŞİ MÜZAKİRƏ OLUNDU

Aprelin 19-da Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsi Siyasi elm və beynəlxalq münasibətlər departamenti ilə birlikdə doktorant Şəhriyar Məmmədovun "ABŞ-Azərbaycan münasibətləri: siyasi təhlil" adlı dissertasiya işinin ilkin müzakirəsini keçirdi. Müzakirədə AMEA Fəlsəfə İnstitutunun əməkdaşları – professor Əlikram Tağıyev, f.e.d. Füzuli Qurbanov, s.ü.f.d. Sənan Həsənov, Telman Quliyev, f.ü.f.d. Məhəmməd Cəbrayılov, f.ü.f.d. Hüseyn İbrahimov, s.ü.f.d. Ruhəngiz Hacıyeva, Vəfa Saleh, A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi t.ü.f.d. Mahir İbrahimov, Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri f.ü.f.d. Eldar Şahgəldiyev, Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev, departamentin müəllimi Günay Muxtarova iştirak edirdilər.

PRELIMINARY DEFENSE OF A PHD DISSERTATION

On April 19, Khazar University Division of Graduate Studies and Research held preliminary defence of a dissertation by Shahriyar Mammadov, PhD candidate, on "*US-Azerbaijan relations: a political analysis*" together with the Department of Political Science and International Relations. Associates from the Institute of Philosophy of ANAS, Professor Alikram Tagiyev, Dr. Fuzuli Gurbanov, Dr. Sanan Hasanov, Dr. Telman Guliyev, Dr. Mahammad Jabrayilov, Dr. Huseyn Ibrahimov, Dr. Ruhangiz Hajiyeva, Vafa Saleh, associate of the Institute of History named after A.Bakikhanov, Dr. Mahir İbrahimov, Dr. Eldar Shahgaldiyev, Head of Division of Graduate Studies and Research of Khazar University, Elmar Mustafayev, coordinator of the Department of Political Science and International Relations of Khazar University, and Gunay Mukhtarov, instructor, participated in the defence.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI BMT - NİN IPBES PANELİNƏ EKSPERT SEÇİLDİ

KHAZAR UNIVERSITY ASSOCIATE ELECTED AS AN EXPERT OF IPBES PANEL OF UN

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun Almaniyanın Bonn şəhərində yerləşən BMT-nin IPBES *(Intergovernmental Science-Policy Platform on Biodiversity and Ecosystem Services)* panelinin növbəti üç il ərzində Fənlərarası ekspert (*Multidisciplinary Expert Panel*) panelinə üzvlüyü təsdiq edilmişdir.

Qeyd edək ki, bütün regiondan yalnız Xəzər Universitetinin əməkdaşı bu paneldə təmsil olunur.

Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, Khazar University, has been elected as a member of the Multidisciplinary Expert Panel (MEP) of IPBES (Intergovernmental Science-Policy Platform on Biodiversity and Ecosystem Services), which is located in Bonn, Germany, for the next three years.

It should be noted that it is only Khazar University associate who represents the whole region in this panel.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU İLƏ BƏDİİ TƏRCÜMƏ VƏ ƏDƏBİ ƏLAQƏLƏR MƏRKƏZİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUM

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi (BTƏƏM) arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Sənədi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli və BTƏƏM-in sədri şair Səlim Babullaoğlu imzalayıblar.

Tədbiri giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi ilə bu günə qədər əməkdaşlığı barədə danışıb. Akademik İsa Həbibbəyli bildirib ki, imzalanan memorandum bu əməkdaşlığı daha da möhkəmləndirəcək. İki qurum arasında imzalanan və uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlığı nəzərdə tutan bu sənədə əsasən, Azərbaycan ədəbiyyatının və filoloji fikrinin xarici dillərə tərcüməsi və təbliği işində daimi məsləhətləşmələr aparılacaqdır. Bundan əlavə, memorandumda hər iki qurumun birgə təşkilatçılığı ilə ədəbi tədbirlərin - konfrans, festival, görüş və təqdimatların keçirilməsi, eləcə də mərkəzin "Dünya ədəbiyyatı" jurnalının nömrələrinin mütəmadi olaraq Ədəbiyyat İnstitutunun kitabxanasına çatdırılması nəzərdə tutulur. Həmçinin, BTƏƏM-in Azərbaycan ədəbiyyatı ilə əlaqədar xaricdə nəşri nəzərdə tutulan kitablara mövzu və istiqamətlə bağlı Ədəbiyyat İnstitutunun təklif etdiyi xüsusi və ya icmal xarakterli məqalələr də alınacaqdır.

Çıxışı zamanı akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının dünyada tanıdılmasında, eləcə də xarici ölkə yazıçı və şairlərinin əsərlərinin dilimizə tərcümə olunaraq oxuculara çatdırılmasında BTƏƏM-in fəaliyyətini yüksək dəyərləndirib.

Sonra çıxış edən BTƏƏM-in sədri Səlim Babullaoğlu iki qurum arasında əməkdaşlığın əhəmiyyətindən danışıb və bildirib ki, imzalanan memorandum qarşılıqlı əlaqələri inkişaf etdirəcəkdir.

"ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV OBRAZI: TARİXİ GERÇƏKLİKDƏN İDEALA" ADLI KİTABIN TƏQDİMATI



AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr edilən, Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" adlı kitabın Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi ilə birgə təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycandan çıxan dünya miqyaslı siyasi lider olduğunu qeyd edib. Akademik İsa Həbibbəyli bildirib: "Heydər Əliyev ədəbiyyatı, Azərbaycan ədəbi-ictimai fikrini xalqın böyük ideallarına doğru məharətlə istiqamətləndirmiş və inkişaf etdirmişdir. Məhz ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində XX əsrin 70-80-ci illərindən Azərbaycan ədəbiyyatı milli-mənəvi dəyərləri vəsf etmiş və xalqın tarixi ilə bağlı mövzulara və şəxsiyyətlərə doğru böyük dönüş baş vermişdir. Bu isə nəticə etibarilə Azərbaycanda cəmiyyət həyatında ümummilli ideallar uğrunda mübarizənin böyük hərəkat səviyyəsinə qaldırılmasına gətirib çatdırmışdır".

Akademik İsa Həbibbəyli qeyd edib ki, bu günə qədər Heydər Əliyevin ədəbiyyata qayğısından çox yazılsa da, bu mövzu bitməyib. Amma "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" kitabında ilk dəfə olaraq ədəbiyyatda Heydər Əliyev obrazı tədqiqata cəlb edilmişdir. Akademik çıxışında Azərbaycan-Misir ədəbi əlaqələrindən danışaraq bildirib ki, bu gün Misir universitetlərində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadə ayrıca kurs kimi tədris olunur.

Tədbirdə çıxış edən Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin sədri Əhməd Sami Əl-Aydi Ümummilli lider Heydər Əliyevin Azərbaycan-Misir əlaqələrinin banisi olduğunu bildirib. O qeyd edib ki, Misirdə xarici dövlət liderlərindən yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin heykəli vardır.

Konfransda AMEA-nın müxbir üzvü Tehran Mustafayev "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" adlı məruzə ilə çıxış edib.

Sonra filologiya üzrə elmlər doktoru Yaşar Qasımbəyli, filologiya üzrə elmlər doktoru Ehrarə Akimova, professor İmamverdi Həmidov çıxış edərək, "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" kitabı haqqında fikirlərini bölüşüblər.





"İSTƏK" LİSEYİNİN ŞAGİRDLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 20-də Xəzər Universitetinin Tələbələrin cəlb olunması üzrə işçi qrupunun rəhbəri professor Fuat Rəsulov və İnsan resursları şöbəsinin əməkdaşı Özal Məmmədli Bakı "İstək" liseyinin əsas binasında Xəzər Universitetini tanıtmaq məqsədilə görüş keçirdilər.

Görüşdə "İstək" liseyinin İB, A-Level və AP proqramları üzrə təhsil alan şagirdləri iştirak edirdilər. Görüş həm ingilis dilində (Özal Məmmədli), həm də Azərbaycan dilində (Fuat Rəsulov) keçirildi. Şagirdlərə universitetin reklam bukletləri paylanıldı. "İstək" liseyinin rəhbərliyi Xəzər Universitetindən fizika, kimya və riyaziyyat fənləri üzrə "açıq dərs" təşkil etməyi xahiş etdi.

Görüşün sonunda şagirdlərin sualları cavablandırıldı.

Həmin gün "İstək" liseyinin Quba filialının şagirdləri Xəzər Universitetində oldular. Əvvəlcə Özal Məmmədli şagirdləri universitetlə tanış etdi, sonra şagirdlər Fuat Rəsulovun hazırladığı təqdimatı dinlədilər.

Tədbirin sonunda şagirdlərin sualları cavablandırıldı və universitetin bukletləri onlara təqdim olundu.

Qonaqlar təşəkkürlərini bildirdilər və digər universitetlərdən fərqli olaraq, Xəzər Universitetindəki görüşün çox səmimi olduğunu qeyd etdilər.

MEETING WITH STUDENTS AT "İSTƏK" LYCEUM

On April 20, Prof. Fuat Rasulov, Head of a working group with prospective students, and Ozal Mammadli, a staff member of Department of Human Resources, held a promotional meeting with the students of "İstək" Lyceum.

Students studying within IB, A-Level və AP programs at "İstək" Lyceum joined the meeting. The meeting was both in English (Ozal Mammadli) and Azerbaijani (Fuat Rasulov) languages. University members handed out promotional leaflets to students. Administration of "İstək" Lyceum requested Khazar University to hold "open lessons" in Physics, Chemistry, and Maths subjects. University members also answered students' questions.

On the same day, students of Guba branch of "İstək" lyceum visited Khazar University. First, Ozal Mammadli organized a campus tour for students, then Fuat Rasulov made a presentation for the students. Moreover, University members answered students' questions and gave them promotional leaflets.

Students expressed their thanks and mentioned that unlike other universities, Khazar University left a deep impression on them.





LAYİHƏ RƏHBƏRİ XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİDİR

KHAZAR UNIVERSITY INSTRUCTOR AS A PROJECT MANAGER

Aprelin 20-də Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının təşəbbüsü ilə Qazax rayonunda "III Məmməd Araz poeziya günü"nün açılışı oldu.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun, Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı və Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Gənclər Mərkəzində keçirilən tədbir xalq şairinin öz ifasında səslənən şeirinin oxunması ilə başladı. Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbir iştirakçılarını salamladı.

AYB Qazax zona filialının sədri Barat Vüsal və "Məmməd Araz poeziya günü" layihəsinin rəhbəri Qardaşxan Əzizxanlı Məmməd Araz yaradıcılığının Azərbaycan ədəbiyyatındakı rolundan söz açdı. Layihə rəhbəri bildirdi ki, aprelin 20-dən etibarən Qazaxdan başlayan poeziya günləri ölkəmizin müxtəlif şəhərlərində davam edəcək.

Tədbirdə əməkdar artistlərdən Nuriyyə Hüseynova və İlkin Əhmədov, aşıqlardan Camoy Qurbanov və Yaşar Gülümcanov şairin şeirlərinə həsr olunmuş mahnılar oxudular.

"Məmməd Araz poeziya müsabiqəsi"nin qalibi olmuş məktəblilərin çıxışları zamanı şairin "Azərbaycan – dünyam mənim" və "Qalx ayağa, Azərbaycan" şeirlərinin ifaçılarının tədbir iştirakçıları ayaq üstə, alqışlarla qarşıladılar.

Tədbirin sonunda müsabiqə qaliblərinə Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu tərəfindən təsis edilmiş diplomlar və hədiyyələr təqdim edildi.

On April 20, Gardashkhan Azizkhanli, instructor of the Department of Azerbaijani Language and Literature, initiated *III Mammad Araz Poetry Day* in Gazakh region.

The opening ceremony was held in Youth Center on the initiative of the Knowledge Foundation under the President of the Republic of Azerbaijan, Union of Azerbaijani Writers (UAW), and Executive Power of Gazakh region. The ceremony started with recorded recitation of author's poems by himself. Then Rajab Babashov, Head of Executive Power of Gazakh region, greeted the participants.

Barat Vusal, Chairman of Gazakh region office of UAW, and Gardashkhan Azizkhanli, project manager of *Mammad Araz Poetry Day*, talked about Mammad Araz's important role in Azerbaijani literature. Gardashkhan Azizkhanli mentioned that poetry day, which started on April 20th in Gazakh, will take place in other cities as well.

Nuriyya Huseynova and Ilkin Ahmadov, Honored Artists, as well as Jamoy Gurbanov and Yashar Gulumjanov, ashigs, sang songs with lyrics by the poet.

The audience warmly applauded the poems "Azerbaijan – my world" and "Revive, Azerbaijan" which were recited by students who won the competition "Mammad Araz poetry".

The winners of the competition were presented with certificates and diplomas of the Knowledge Foundation under the President of the Republic of Azerbaijan.



THE SAME "FRİENDSHİP MATCH" ADLI FUTBOL YARIŞI KEÇİRDİ

THE SAME HOLDS "FRIENDSHIP MATCH"

Aprelin 22-də Xəzər Universitetini "P2P: Facebook Global Digital Challenge" müsabiqəsində təmsil edən "THE SAME" komandasının təşəbbüsü ilə "Friendship Match" adı altında futbol yarışı keçirildi. Oyunda müxtəlif xalqlara mənsub 12 gənc öz dostluq və birliklərini nümayiş etdirdilər.

Bildiyimiz kimi, futbol sadəcə oyun deyil, həm də xalqlar arasında sülh və dostluq rəmzidir. Bu oyun vasitəsilə ayrı-ayrı xalqların və irqlərin fərqliliyinin olmadığı, hər kəsin bərabər olduğu nümayiş olunur. Buna görə də, irqçiliyin aradan qaldırılmasına çalışan THE SAME komandası nümunəvi addım ataraq, fərqli irqlərin təmsilçilərini bir araya gətirdi, tolerant mühit yaratdı.

Oyunda Əfqanıstan, Cənubi Koreya, Efiopiya, Qambiya və Azərbaycandan olan həvəskar futbolçular iştirak edirdilər: Aman Nazari; Dawda Ndure; Fuad Ismayilov; Jaehyun Chung; Jin Pyeong Kim; Kim Seongjeong; Moha Akhondzadeh; Murtaza Azali; Nihad Mehdiyev; Rob Haile; Toğrul Tağızadə; Waheed Muhammad. Oyunun nəticəsi 5:6 olsa da, sonda qalib gələn birlik, bərabərlik və dostluq oldu.

Qeyd edək ki, THE SAME komandası Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələrindən təşkil edilmişdir və layihəyə "Edventure Partners (EVP)" şirkəti idarəçilik edir. Müsabiqə "P2P: Facebook Global Digital Challenge" adı ilə təşkil olunmuş beynəlxalq universitetlərarası yarışdır. Müsabiqədə 50-dən artıq ölkədən təmsilçilər var, ölkəmizi isə yarışda yalnız THE SAME komandası təmsil edir.

Bu haqda daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

On April 22, football competition "Friendship Match" was held on initiatives of "THE SAME" team, which represents Khazar University in "P2P: Facebook Global Digital Challenge" competition. 12 young men demonstrated friendship and solidarity within the competition.

As it is obvious, football is not just a game, it is also a symbol of peace and friendship among nations. This competition demonstrates equality of all nations and races. Therefore, "THE SAME" team created a tolerant environment by gathering people of various races together. Amateur football players from Afghanistan, South Korea, Ethiopia, Gambia and Azerbaijan participated in this competition: Aman Nazari; Dawda Ndure; Fuad Ismayilov; Jaehun Chung; Jin Pyeong Kim; Kim Seongjeong; Moha Akhondzadeh; Murtaza Azali; Nihad Mehdiyev; Rob Haile; Togrul Tagizade; Waheed Muhammad.

THE SAME" team has been established by the students of the School of Economics and Management of Khazar University. The team is managed by "Edventure Partners (EVP)" company. The team participates in "P2P: Facebook Global Digital Challenge", an international competition among universities. Teams from more than 50 countries participate in this competition in which "THE SAME" is the only team representing Azerbaijan.

More information can be obtained through these links:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

"XƏZƏR"İN MÜƏLLİMİNƏ FƏXRİ FƏRMAN VERİLİB

Aprelin 23-də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə *Holiday Inn Baku* otelində "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibətilə "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbirdə Elektronika, telekommunikasiya və radiomühəndislik departamentinin müəllimləri - fizika üzrə fəlsəfə doktorları, dosentlər Sevda Qəribova və Fəridə Tatardar da iştirak etmişlər.

Sevda Qəribovaya yaradıcılıq və innovasiya sahəsində nailiyyətlərinə görə Fəxri fərman verilmişdir.



KHAZAR UNIVERSITY INSTRUCTOR AWARDED WITH A DIPLOMA

On April 23, 2018, the round-table talks on "Women in innovation and creativity: leading power of change" was held in Holiday Inn Baku hotel on the occasion of "International Intellectual Property Day" on the joint organizational support of the Copyright Agency of Azerbaijan Republic and the State Committee for Family, Women and Children Affairs of Azerbaijan Republic. Instructors of the Department of Electronics, Telecommunications and Radio Engineering, Assoc. Prof. Sevda Garibova, PhD in Physics, and Farida Tatardar participated in the event. Sevda Garibova was awarded with a diploma for success in creativity and innovation.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI HAQQINDA MƏQALƏ YAYIMLANIB

Aprelin 24-də *Müstəqil.az* saytı ADPU Cəlilabad filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlının (Hüseynovun) Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının yaradıcılığı haqqında "Sözü kimliyi olan şair" adlı məqaləsini yayımlamışdır.

Məqaləni bu linkdən oxumaq olar:

http://www.mustaqil.az/2018/04/24/sozu-kimliyi-olan-sair/

AN ARTICLE ABOUT KHAZAR UNIVERSITY INSTRUCTOR

On April 24, *Müstəqil.az* news portal posted an article "A word as an identity of a poet" by Bilal Alarli (Huseynov), PhD in Philology and instructor of Azerbaijan State Pedagogical University, Jalilabad branch, was published. The article is dedicated to Gardashkhan Azizkhanli, instructor of the Department of Azerbaijani Language and Literature, School of Education of Khazar University.

The full article is available at:

http://www.mustaqil.az/2018/04/24/sozu-kimliyi-olan-sair/



Milli Azərbaycan Tarixi Muzeyi

AZƏRBAYCAN TARİXİ DƏRSİ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ KEÇİRİLDİ

"AZERBAIJANI HISTORY" LESSON HELD AT AZERBAIJAN NATIONAL HISTORY MUSEUM

Aprelin 23-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Səbuhi Əhmədov Təhsil fakültəsinin tələbələri ilə növbəti "Azərbaycan tarixi" dərsini Milli Azərbaycan Tarixi Muzeyində keçirdi. Tələbələr "Azərbaycan Şirvanşahlar dövləti" ilə tanış oldular. Onlara dövlətin Azərbaycan tarixində tutduğu yer, oynadığı rol haqqında ətraflı məlumat verildi, dövlətlə bağlı eksponatlar nümayiş etdirildi.

Sonra universitetin tələbəsi Zöhrə Xəlilova Azərbaycanın görkəmli sənayeçi və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş təqdimatla çıxış etdi.

Dərsin sonunda Səbudi Əhmədov tələbələrin suallarını cavablandırdı.

On April 23, Sabuhi Ahmadov, instructor of the Department of History and Archeology of Khazar University, held "Azerbaijani History" lesson for students of the School of History at Azerbaijan National History Museum. Students became familiar with "Azerbaijan Shirvanshahs State". Moreover, the students received detailed information on the role of the State in the history of Azerbaijan and saw the exhibition related to the State.

Then, Zohra Khalilova, Khazar University student, made a presentation about Haji Zeynalabdin Taghiyev, the prominent industrialist and philanthropist of Azerbaijan.

At the end of the lesson Sabuhi Ahmadov answered the students' questions.



DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİ (DİM) VƏ KÖNÜLLÜLƏRİN ROLU

Aprelin 24-də Xəzər Universiteti Karyera Mərkəzinin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının Könüllüləri Proqramı (UNV) və AIESEC Könüllülük Proqramı ilə bağlı məlumat sessiyası keçirildi.

Məruzəçi BMT Könüllülük Proqramının rəhbəri Kim Kiyoun tələbələrə ümumi məlumat verərək, onları proqramda iştirak etməyə dəvət etdi. Sonra Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Murtaza Afzali AIESEC Könüllülük Proqramı ilə bağlı məlumat verdi.

Məlumat sessiyasının sonunda tələbələrin sualları cavablandırıldı.

SUSTAINABLE DEVELOPMENT GOALS (SDGS) AND THE ROLE OF VOLUNTEERS

On April 24, informational session on the United Nations Volunteers (UNV) program and AIESEC volunteers program was held on the initiative of Career Center of Khazar University.

Speaker Kim Kiyoun, Head of UNV gave students information on the program and invited them to join the program. Then Murtaza Afzali, a student of the School of Economics and Management, gave students information on AIESEC volunteers program. Speakers also answered students' questions.

TƏLƏBƏLƏR ÜÇÜN TƏLİM

Aprelin 24-də Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin (KİM) əməkdaşları Aytac Misgərli və Samirə Orucova Humanitar və sosial elmlər fakültəsinin tərcüməçilik ixtisasının tələbələri üçün "Elektron resurslardan necə faydalanmalı" adlı təlim keçirdilər.

Təlimdə tələbələrə informasiya mənbələrinə asan giriş, axtarış üsulları və kitabxanada olan yeni xidmətlər haqqında məlumat verildi.

TRAINING FOR STUDENTS

On April 24, Aytaj Misgarli and Samira Orujova, staff members of Library and Information Centre of Khazar University, held a training on "How to use electronic resources" for the students of the School of Humanities and Social Sciences.

Students received broad information on access to information resources, effective search methods and new services at the library.



BEYNƏLXALQ AVRASİYA MƏTBUAT FONDUNUN PREZİDENTİ "THE SAME" KOMANDASI İLƏ GÖRÜŞDÜ

PRESIDENT OF INTERNATIONAL EURASIA PRESS FUND MEETS "THE SAME" TEAM

Aprelin 24-də "THE SAME" komandasının üç üzvü, İqtisadiyyat və menecment fakültəsinin tələbələri – Taliyə Hüseynzadə, Ruslan Osmanlı və Xəyalə Şıxəliyeva Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev ilə görüşdülər. Görüşdə komandanın yaranması, məqsədi və gələcək planları müzakirə olundu.

Görüş zamanı komandanın gördüyü işlər, hazırkı dövrdə ideyanın cəmiyyət üçün vacibliyi xüsusi vurğulandı və irqçiliyin həlli yolları, eləcə də, bu istiqamətdə internet üzərindən yayılan nifrət mesajlarının azalması üçün işlərin görülməsinə ehtiyac duyulduğu qeyd edildi. BAMF-ın prezidenti tələbələrin bu təşəbbüsünü yüksək dəyərləndirdiyini və onlara bu işdə dəstək olmağa hazır olduğunu bildirdi. Komanda üzvləri Beynəlxalq Avrasiya Mətbuat Fondu ilə yaxından tanış oldular və görüşə görə öz minnətdarlıqlarını bildirdilər.

Görüş haqqında daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

http://eurasiadiary.com/az/news/society/274894-beynelxalq-avrasiya-metbuat-fondunun-prezidenti-the-same-komandasinin-uzvleri-ile-gorusub

http://eurasiadiary.com/en/news/society/274878-iepf-president-meets-with-the-same-team

On April 24, three team members of "THE SAME", students of the School of Economics and Management – Taliya Huseynzade, Ruslan Osmanli, and Khayala Shikhaliyeva - met with Umud Mirzayev, the President of International Eurasia Press Fund (IEPF). During the meeting, the aim and future plans of the team were discussed.

It was mentioned that the activities of the team and its message to the society were of great importance. Moreover, it was noted that it was crucial to struggle against racism and take measures against hate speech disseminated over the internet. The meeting lasted an hour. Umid Mirzayev highly appreciated initiatives of the team and stressed that he was ready to support the team. Team members became closely familiar with International Eurasia Press Fund and expressed their gratitude for the meeting.

More information on the meeting is available via the following links:

http://eurasiadiary.com/az/news/society/274894-beynelxalq-avrasiya-metbuat-fondunun-prezidenti-the-same-komandasinin-uzvleri-ile-gorusub

http://eurasiadiary.com/en/news/society/274878-iepf-president-meets-with-the-same-team





TURİZM İXTİSASININ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 24-də Xəzər Universiteti Karyera mərkəzinin meneceri Səbinə Allahverenova turizm ixtisasının tələbələri ilə görüş keçirdi. Görüşün əsas məqsədi hazırda bu ixtisas üzrə təhsil alan 1-ci və 2-ci kurs tələbələrini mövcud şirkətlər və təşkilatlarla bağlı məlumatlandırmaq idi.

Görüş zamanı tələbələrin karyera planları müzakirə olundu və onlara istər təcrübə proqramı mərhələsinə hazırlıq, istərsə də iş axtarma prosesində Karyera mərkəzindən ala biləcəkləri dəstəklə bağlı geniş məlumat verildi.

Qeyd edək ki, Xəzər Universitetində turizm ixtisası üzrə mütəxəssis hazırlığı 2016-cı ildən başlamışdır.

MEETING WITH STUDENTS

On April 24, Sabina Allahverenova, manager of Career Center or Khazar University, held a meeting with students majoring in Tourism. The aim of the meeting was to inform first and second year students about companies and organisations dealing with tourism.

During the meeting, students discussed their career plans and received information on how Career Center can support them to find internship programs and employment. Khazar university started preparing specialists to work in the field of Tourism in 2016.

THE SAME - İN MƏLUMAT GÜNÜ

PEER to PEER START Project

INFO DAY OF THE SAME

Aprelin 26-da THE SAME komandası Xəzər Universitetində məlumat günü keçirdi. Komanda üzvləri kampaniyaları və məqsədləri haqqında məlumat verdilər. Tədbirin məqsədi Xəzər Universitetinin tələbələrini daha çox məlumatlandırmaq, daha çox tərəfdaş əldə etmək və komanda haqqında dəqiq məlumat yaymaq idi. Həmçinin, komanda "Sticker Challenge" müsabiqələrini elan etdi. Müsabiqəyə əsasən komanda irqçiliklə mübarizə aparmağı qarşısına məqsəd qoymuşdur.

Bu haqda daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

On April 26, THE SAME held an info session day at Khazar University. Members of Team gave information about their campaign and their purpose. The purpose of this event is informing more people, getting more supporters and publishing clear information about Team THE SAME for students of Khazar University. Also, the team announced their "Sticker Challenge" competition as well. Based on this challenge the team aimed to fight racism in society as an online hate speech.

More information is available through the following links:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/



AVROPA İTTİFAQININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞ

Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində mayın 1-də NDU-da olub.

Görüşdən əvvəl qonağa universitetin elmi kitabxanasında mövcud olan elektron köşk haqda məlumat verilib. Qeyd edilib ki, irihəcmli skaner aparatı vasitəsilə artıq 5 minə qədər kitab pdf formatda elektron qaydada tərtib edilib, kitabxananın portalına yerləşdirilib.

Görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının zəngin maddi-texniki bazası, tərəfdaş olduğu ölkələrlə apardığı tələbə-müəllim mübadiləsi haqda məlumat verib. Rektor universitetdə hər il yeni tədris korpuslarının tikilib və ya əsaslı sürətdə təmir olunmasından danışıb. Qeyd edilib ki, 2017-ci ilin noyabr ayında universitetin 50 illik yubileyi münasibətilə İqtisad fakültəsi üçün yeni tədris korpusu tikilib və müasir maddi-texniki vasitələrlə zənginləşdirilərək, tələbə və müəllimlərin ixtiyarına verilib. Rektor bu ilin yanvar ayında Azərbaycan ali məktəbləri sırasında ilk dəfə olaraq NDU-da tətbiq olunan distant təhsil və yaradılan Distant Təhsil Mərkəzi haqda məlumat verib.

Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas universitetdə mövcud olan elmi və texniki potensialı yüksək dəyərləndirərək təhsil və elm sahəsində yeni layihələrin icra olunması istiqamətində görüləcək işlərdən danışıb.

Qonaq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, eləcə də Naxçıvanın 2018-ci ildə Azərbaycanın Gənclər paytaxtı və İslam Mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı təbriklərini çatdırıb. Həmçinin bildirib ki, bu ilin sentyabr ayında Avropa İttifaqına üzv olan 20 dövlətin səfirliyinin nümayəndələri Naxçıvanda bir araya gələcək. Bu məqsədlə keçiriləcək tədbirlərdə universitet tələbələrimin də iştirakının əhəmiyyətli olacağını diqqətə çatdırıb.



ƏCNƏBİ TƏLƏBƏLƏRİN DƏ İŞTİRAK ETDİYİ TƏDBİRDƏ ULU ÖNDƏRİN XATİRƏSİ ANILIB

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və NDU-nun birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Naxçıvan Biznes Mərkəzində təşkil olunan tədbirdə əcnəbi tələbələr də iştirak edib.

Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq, Ulu öndərin təhsilin inkişafı sahəsində gördüyü işlərdən, qazanılan uğurlardan, muxtar respublikada son illərdə bu sahə ilə bağlı əldə edilən nailiyyətlərdən danışıb.

Miqrasiya xidmətinin rəisi Şahin Nəbiyev bildirib ki, mövcud sabitlik, artan sosial-iqtisadi inkişaf nəticəsində muxtar respublikaya miqrasiya axını ilbəil artır. Vurğulanıb ki, Naxçıvanda yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı məsələ Dövlət Miqrasiya Xidmətinin diqqət mərkəzində saxlanılır.

Xidmətin baş inspektoru Qiyas Paşayev tələbələri xidmətin saytından istifadə qaydaları ilə tanış edib. O, xarici tələbələrə ən az vaxt sərf etməklə sayt vasitəsilə elektron qaydada da sənədlərini təqdim edə bilmələri üçün yaradılan şəraitdən ətraflı danışıb.

Əcnəbi tələbələrin qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələri haqqında çıxışında Miqrasiya Xidmətinin şöbə rəisi Zakir Məmmədov Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normalarının müəyyənləşdirilməsində 2013-cü il Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Universitetin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə VI kurs tələbəsi nigeriyalı Odigie Samson Joe vurğulayıb ki, Naxçıvanın müasir siması və sürətli inkişafı bizdə xoş təəssüratlar yaradır. Naxçıvan Dövlət Universitetində mövcud olan müasir təhsil üsulundan razı qaldığını dilə gətirən əcnəbi tələbə gələcəkdə Naxçıvanı tanıtmaq istiqamətində əsərlərini əsirgəməyəcəyini dilə gətirib.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı videoçarx təqdim olunandan sonra əcnəbi tələbələr üçün müvəqqəti yaşamaq üçün icazə vəsiqələri və bukletlər təqdim edilib, müvafiq müraciətlər qəbul edilib. Həmçinin Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq olub.

Sonda qaliblər mükafatlandırılıb.

Səadət Əliyeva,
NDU-nun Mətbuat Şöbəsinin Müdiri



Milli Azərbaycan Tarixi Muzeyi

"AZƏRBAYCAN TARİXİ"NDƏN NÖVBƏTİ DƏRS MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ KEÇİRİLDİ

A LESSON AT NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY FOR STUDENTS OF "HISTORY OF AZERBAIJAN"

Aprelin 26-da "Azərbaycan tarixi" fənnindən B qrupunun tələbələri ilə növbəti dərs Milli Azərbaycan Tarixi Muzeyində keçirildi. Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d. Səbuhi Əhmədovun apardığı dərsdə tələbələr muzeyin daimi ekspozisiyası ilə tanış oldular. Onlara Azərbaycanın qədim və orta əsrlər dövrü tarixinin şanlı səhifələri haqqında məlumat verildi.

Muzeyin bələdçisi Günay Gülməmmədova Azərbaycan dövlətçiliyinin inkişaf xəttini tarixi eksponatlar vasitəsilə əyani olaraq nümayiş etdirdi.

Dərsin sonunda Səbuhi Əhmədov tələbələrin suallarını cavablandırdı.

On April 26, a lesson was organized at National Museum of Azerbaijan History for students of "History of Azerbaijan". The lesson was conducted by Sabuhi Ahmadov, PhD in History and instructor of the Department of History and Archaeology. During the lesson, students got acquainted with a permanent exhibition of the museum as well as the glorious times of the ancient and medieval history of Azerbaijan.

Gunay Gulmammadova, guide of the museum, demonstrated historical exhibition on the development of statehood of Azerbaijan.

At the end, Sabuhi Ahmadov answered students questions.





"ERTƏLƏMƏ" XƏSTƏLİYİ MÖVZUSUNDA SEMİNAR

Aprelin 26-da Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsi Psixologiya departamentinin və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə "Ertələmə" xəstəliyi adlı seminar təşkil edildi. Seminarı Psixologiya departamentinin müəllimi, gənc psixoloq Nilufər Əlizadə aparırdı. Seminar iştirakçıları sözügedən mövzuda geniş məlumat almaq və bu problemlə necə mübarizə aparmaq istiqamətində maariflənmək imkanı əldə etdilər.

Sonda isə iştirakçıların sualları cavablandırıldı və ümumi müzakirə aparıldı.

SEMINAR ON "PROCRASTINATION"

On April 26, 2018, on initiatives of the Department of Psychology of Khazar University and Khazar Psychological Service Center, a seminar on "Procrastination" was held. Nilufar Alizadeh, a young psychologist and instructor of the Department of Psychology, conducted the seminar. Participants were enlightened about procrastination and learned how to struggle with it.

The speaker held a discussion with participants and answered their questions.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞINA DOSENT DİPLOMU TƏQDİM OLUNDU

Aprelin 30-da Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasında Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin koordinatoru f.ü.f.d. Zivər Hüseynli-Baylana dosent diplomu təqdim olundu.

Qeyd edək ki, Ali Attestasiya Komissiyasının 28 fevral 2018-ci il tarixli qərarı ilə Zivər Hüseynli -Baylana Dillər və mədəniyyətlər kafedrası üzrə dosent elmi adı verilmişdi.


THE ACADEMIC TITLE OF ASSOC.PROF. WAS CONFERRED ON KHAZAR UNIVERSITY ASSOCIATE

On April 30, Zivar Huseynli-Baylan, coordinator of the Department of Languages and Cultures of Khazar University, was presented with a diploma of Assoc. Prof. at Supreme Attestation Commission, under the President of the Republic of Azerbaijan.

For the record, Zivar Huseynli-Baylan, was granted the academic title of Assoc. Prof. of the Department of Languages and Cultures by Decision of Supreme Attestation Commission, dated February 28, 2018.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

28 fevral 2018-ci il tarixli (protokol № 06 - X)
qərarı ilə
Zivər Hüseyn qızı Hüseynli Baylana
dillər və mədəniyyətlər kafedrası üzrə
DOSENT
elmi adı verilmişdir


THE SUPREME ATTESTATION
COMMISSION ATTACHED TO THE PRESIDENT OF
THE REPUBLIC OF AZERBAIJAN
by the Decision dated February 28, 2018
(Minutes № 06 - X)
confers on
Zivar Huseyn Huseynli Baylan
the academic title of
ASSOCIATE
PROFESSOR
at the Department of Languages and Cultures





"MALİYYƏ VƏ MÜHASİBATLIQ SAHƏSİNDƏ KARYERA İNKİŞAFI" MÖVZUSUNDA SEMİNAR

Aprelin 26-da Xəzər Universitetinin Karyera Mərkəzinin təşəbbüsü ilə "Maliyyə və mühasibatlıq sahəsində karyera inkişafı" adlı seminar keçirildi. Seminarın keçirilməsində məqsəd Xəzər Universitetində maliyyə və mühasibatlıq üzrə bakalavr təhsili alan tələbələrin fərdi və peşəkar inkişafı üçün karyera planlamasının önəmi və onun təşkili prinsiplərinin idarə olunmasına nail olunması idi.

Headstart International şirkətinin Biznesin inkişafı üzrə meneceri İbrahim Osmanov maliyyə və mühasibatlıq sahəsində karyera qurmaq istəyən gənclərin karyera planlamasında diqqət etməli olduğu məqamlar, əmək bazarındakı rəqabət şəraitində gənc kadrların digərlərindən fərqlənməsi və üstünlüyə nail olunması üçün fərdi inkişaf planları haqqında ətraflı məlumat verdi.

Seminarda milli və beynəlxalq mühasibatlıq seçiminin şəxslərin karyeralarında edə biləcəyi dəyişikliklər və perspektivə təsir mexanizminə aid mövzulara da toxunuldu.

Headstart International şirkətinin ACCA üzrə Keyfiyyətə Nəzarət Meneceri Elvin İbrahimov ACCA kvalifikasiyasının maliyyə və mühasibatlıq sahəsində karyera qurmaq istəyən gənclərə önəmi mövzusunda iştirakçılarla interaktiv müzakirə apardı. Bundan əlavə, tələbələrin maliyyə və mühasibatlıq sahəsində şəxsi inkişafları üçün zəruri olan beynəlxalq kvalifikasiyanın modulları barədə şirkət əməkdaşı iştirakçıları məlumatlandırdı.

Qeyd edək ki, 100 ildən artıq tarixi olan, mühasibatlıq, maliyyə və idarəetmə sahəsində uğurlu karyera qurmaq istəyənlər üçün yüksək səviyyəli kvalifikasiya hesab olunan ACCA dünyanın 181 ölkəsində tanınır, 486 min tələbə və 200 mindən çox üzvə malikdir.

Sonda, seminar iştirakçıları məruzəçilərə maraqlandıqları mövzular barədə suallar ünvanlayaraq və maliyyə - mühasibatlıq sahəsində gələcək karyeraları üçün geniş məlumat əldə etdilər.





SEMINAR ON "CAREER DEVELOPMENT IN FINANCE AND ACCOUNTING"

On april 26, a seminar on "career development in finance and accounting" was held on the initiative of khazar university psychology center. The aim of the seminar was to enlighten the undergraduate students majoring in finance and accounting about the importance and methods of personal and professional development.

Ibrahim osmanov, business development manager of headstart international company, gave students broad information on essential points in career development in finance and accounting as well as the importance of a personal development plan to become an expert with high competitiveness. He also talked about possible changes recommended for students studying national and international accounting and factors affecting the career perspective.

Elvin ibrahimov, quality control manager on acca of headstart international company, held an interactive discussion with students on the importance of acca qualification for students wishing to build a career in finance and accounting. Besides, company employees enlightened students on modules of international qualifications which are important in terms of professional development.

Acca, which has the historical background of more than 100 years, is considered high-level qualification for those building careers in finance and accounting. Acca is recognized in 181 countries and has 486 thousand students and 200 thousand members.

Speakers also answered students' questions and provided them with detailed information for a successful career in finance and accounting.



XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ ABİTURİYENTLƏRLƏ BAĞLI KONFRANSDA

Aprelin 28-də Qaradağ rayonunun Mədəniyyət sarayında "Kainat" Tədris Mərkəzinin təşkilatçılığı ilə abituriyentlərin peşə-ixtisas seçimi istiqamətində maarifləndirilməsi üzrə konfrans keçirildi.

Konfransda Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova, Qaradağ Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov, Məşğulluq Mərkəzi, Azərbaycan Dövlət İqtisad Universiteti, Xəzər Universiteti, Azərbaycan Universiteti, "Qərbi Kaspi" Universiteti və Memarlıq və İnşaat Universitetinin təmsilçiləri, valideynlər, abituriyentlər və bəzi peşə təhsili verən kolleclərin və təşkilatların nümayəndələri iştirak edirdilər. Konfrans, əsasən, abituriyentlərə və valideyinlərə dövlət və özəl universitetlərin tanıtımı xarakteri daşıyırdı.

Tədbirdə Xəzər Universitetini Tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov, Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov, Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimi Kənan Şıxəliyev, Humanitar və sosial elmlər fakultəsinin dekan köməkçisi Paşa Aydayev və Multimedia Mərkəzinin əməkdaşı Əzizə Cəfərli təmsil edirdilər.

Mədəniyyət sarayının foyesində quraşdırılmış Xəzər Universitetinin stendində əməkdaşlar universitetin tanıtım broşürlərini, ixtisaslar üzrə bukletləri və eləcə də, təklif olunan güzəştlər və təqaüdlər haqqında məlumatların əks olunduğu açıqcaları valideynlərə və abituriyentlərə təqdim edilər, onları maraqlandıran sualları ətraflı cavablandırdılar.

"Xəzər"in stendinə iştirakçılar böyük maraq göstərdilər.



REPRESENTATIVES OF KHAZAR UNIVERSITY AT A CONFERENCE



On April 28, awareness raising conference was held, by the organizational support of "Kainat" Education Center, in Culture Center of Garadagh district. The conference was dedicated to the proper choice of profession by prospective students.

Tarana Ismayilova, Deputy Head of Garadagh District Executive Power, Elchin Abbasov, Head of the Department of Youth and Sport of Garadagh District, representatives of Employment Center, Azerbaijan State Economic University, Khazar University, Azerbaijan University, Western Caspian University, University of Architecture and Construction, and vocational training colleges, as well as parents and prospective students participated in the conference. The aim of the conference was to enlighten parents and prospective students about state and private universities.

Fuat Rasulov, Coordinator of working group for prospective students, Goshgar Maharramov, Coordinator of the Department of Education, Kanan Shikhaliyev, Instructor of the School of Engineering and Applied Sciences, Pasha Aydayev, Assistant to Dean of the School of Humanities and Social Sciences, and Aziza Jafarli, associate of Multimedia Center, represented Khazar University at the conference.

At the stand of Khazar University, there were promotional leaflets and booklets reflecting professions, advantages and scholarships offered by Khazar University. Moreover, University representatives answered participants' questions.

The stand of Khazar University was in the focus of attention of the participants.







OMBUDSMAN MƏRKƏZİNİN TƏLƏBƏLƏR ARASINDA KEÇİRDİYİ SORĞU BAŞA ÇATDI

THE SURVEY BY OMBUDSMAN OFFICE IS OVER

Aprelin 30-da Xəzər Universiteti Ombudsman mərkəzinin aprelin 13-dən 27-dək tələbələr arasında keçirdiyi anonim sorğunun yekunlaşması ilə əlaqədar sorğu qutuları İnkişaf mərkəzində dekanlıqların nümayəndələri və inzibati işçilərin iştirakı ilə açıldı və nəticələr protokollaşdırıldı. Nəticələr haqqında məlumat universitet rəhbərliyinə təqdim olundu.

Sorğunun əsas məqsədi tələbələrin tədris prosesi zamanı qarşılaşdıqları mənfi hallarla bağlı şikayət və iradlarını öyrənərək, lazımi tədbirlərin həyata keçirilməsi üçün universitet rəhbərliyinə təqdim etməkdir.

Qeyd edək ki, "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus+ layihəsi çərçivəsində Xəzər Universitetində 7 fevral 2018-ci il tarixində Ombudsman Ofisi yaradılmış və 9 fevral tarixində isə rektorun əmri ilə Rima Məmmədova ombudsman təyin olunmuşdur.

The survey which was conducted from 13 April to 27 April by Ombudsman Office of Khazar University among the students is over. In this connection, on April 30, the survey boxes were opened at Development Center and the results were recorded in the presence of associates of the Departments and administrative staff. The results will be submitted to University administration.

The mainaim of the survey is to study the complaints and claims of the students regarding negative cases in educational process and submit the survey results to University administration so it takes appropriate measures.

It should be noted that Ombudsman Office was established at Khazar University on February 7, 2018, within "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus+ Project. On February 9, Rima Mammadova was appointed Ombudsman by Order of the Rector of Khazar University.

N. SƏFƏROVA: "XƏZƏR UNİVERSİTETİ İLƏ MALAYZİYA UNİVERSİTETLƏRİ ARASINDA YAXŞI ƏLAQƏLƏR VAR"

GOOD RELATIONSHIPS BETWEEN KHAZAR UNIVERSITY AND MALAYSIAN UNIVERSITIES

2018-ci il aprelin 30-da *novoye-vremya* xəbər saytı turizm üzrə ekspert, "Hoasa Asaa" jurnalının baş redaktoru Nərgiz Səfərovadan müsahibə almışdır. N.Səfərova müsahibəsində Malayziya universitetləri ilə Xəzər Universiteti arasında tələbə mübadiləsindən, eyni zamanda, "Dünya" məktəbi ilə yeni layihəyə başlamasından danışmışdır.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://www.novoye-vremya.com/w128201/.../

On April 30, 2018, *novoye-vremya* news portal posted an interview with Nargiz Safarova, editor-in-chief of "Hoasa Asaa" magazine. N.Safarova talked about student exchange between Khazar University and Malaysian Universities as well as her new project implemented with "Dunya" school.

The interview is available via the following link:

http://www.novoye-vremya.com/w128201/.../





XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ÜÇÜN PETRA – MƏLUMATLANDIRICI SEMİNAR

PETRA – INFORMATIVE SEMINAR FOR KHAZAR UNIVERSITY ASSOCIATES

Aprelin 30-da Xəzər Universitetində Erasmus+ PETRA layihəsi çərçivəsində İnkişaf mərkəzi və layihə üzvlərinin təşkilatçılığı ilə növbəti məlumatlandırıcı seminar keçirildi. Seminar cari ilin martında Vyana Tətbiqi Elmlər Universitetində (Avstriya) müzakirə olunmuş məsələləri - universitet əməkdaşlarının tədqiqat vərdişlərinin inkişaf etdirilməsi, universitetlərdə keyfiyyətin təminatı məsələlərinin qoyuluşu və beynəlmiləlləşmə işlərinin görülməsi məsələlərini əməkdaşların nəzərinə çatdırmaq məqsədi daşıyırdı.

Tədbirdə Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru Dr. İradə Xəlilova, Təhsil fakültəsinin dekanı Dr. Elza Səmədova, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova və İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva məruzələrlə çıxış etdilər və iştirakçıların sualların cavablandırdılar.

Universitetin rəhbərliyi və departamentləri müəllimləri üçün nəzərdə tutulmuş seminarda digər əməkdaşlar da iştirak edirdilər.

On April 30, next informative seminar was held on an organizational support of Development Center and the project participants within Erasmus+ PETRA project at Khazar University. The aim of the seminar was to develop research of Khazar University associates, which were discussed at the University of Applied Sciences Vienna (Austria) and enlighten the participants about quality assurance at universities and internationalisation of universities.

Dr.Irada Khalilova, Vice-rector for Research, Dr. Elza Semedli, Dean of the School of Education, Lyudmila Sotova, Director of the Quality Assurance Center, Raziya Isayeva, Director of Development Center, delivered reports and answered the participants' questions.

The seminar was also attended by associates of the Schools and Centers of Khazar University.





THE SAME "PARK BULVAR"DA

PEER to PEER START Project

THE SAME AT "PARK BULVAR"

Mayın 1-də "THE SAME" komandası "Park Bulvar" Ticarət Mərkəzində "Müsabiqə günü" keçirərək, şəhər sakinlərini komandanın məqsədi və "Sticker müsabiqəsi"nin şərtləri ilə tanış etdi. Əlavə olaraq, layihə ilə maraqlanan lar komandanın hazırladığı çağırış plakatı ilə şəkil çəkdirərək, onlara bu layihədə dəstək olduqlarını bildirdilər.

Qeyd edək ki, " Sticker müsabiqəsi" üçün 120-yə yaxın iştirakçı qeydiyyatdan keçmişdir. Şərtlərə əsasən, iştirak etmək üçün stickerlə maraqlı şəkil çəkdirərək, layihənin *Facebook* səhifəsinə göndərilməlidir. Qalib olan 3 nəfər dəyərli hədiyyələr qazanacaq.

Bu haqda daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

On 1 May, "THE SAME" team held "Competition Day" at Park Bulvar in order to ensure people to get familiar with the goals of the team and the terms of "Sticker Challenge". In addition, people took photos with their posters to support the team. İt should be noted that 120 participants have been registered for the "Sticker Challenge".

Based on the terms of the competition, the participants should take a creative sticker photo and send to the Facebook page of the project. 3 winners will be presented with valuable prizes.

More information is available through these links:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

"AUTİZMİ TANIYAQ" ADLI MAARİFLƏNDİRİCİ TƏDBİR

Aprelin 29-da Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva "Autizmi tanıyaq" adlı maarifləndirici tədbir keçirdi. Tədbirdə autizm spektr pozuntusu geniş müzakirə olundu . Tədbirdə Xəzər Universitetinin müəllimləri Dr.Ləman Verdiyeva, Ülkər Bayramova, Təhsil İnstitutunun əməkdaşı Fərid Süleymanov çıxış etdilər, tədbirin əhəmiyyətindən, həmçinin, inklüziv təhsilin hazırda ölkədəki vəziyyəti haqqında iştirakçılara məlumat verdilər.

Maarifləndirici tədbirin sonunda autizm sindromlu 10 yaşlı Salehin əl işi sərgisi oldu.

ENLIGHTENING EVENT 'LET'S KNOW AUTISM' TOOK PLACE

On April 29, Kemale Aliyeva, Instructor of the Department of Psychology of Khazar University, held an enlightening event entitled "Let's know Autism". In the event, autism spectrum disorder was discussed in details. Dr. Leman Verdiyeva and Ulkar Bayramova, instructors of Khazar University, as well as Farid Suleymanov, researcher of Institute of Education, delivered speeches informing participants about the current state of inclusive education in Azerbaijan and mentioned the importance of the event. Then the participants saw the exhibition with handicrafts by ten years old Saleh, a child with autism.



"KASPİ" QƏZETİ "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" - DAN YAZDI

"KASPİ" NEWSPAPER WRITES ABOUT "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES"

2018-ci il mayın 3-də "Kaspi" qəzetinin rəsmi internet səhifəsində ötən il Azərbaycandan *Web of Science* elmi bazasına daxil olan məqalələrlə bağlı araşdırma yazısı çap olunmuşdur. Yazıda Xəzər Universitetinin nəşiri olduğu *"Khazar Journal of Humanities and Social Sciences"* ("Xəzər humanitar və sosial elmlər jurnalı") elmi jurnalına da geniş yer verilmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://kaspiy.az/news.php?id=81081

On May 3, 2018, an official website of "Kaspi" newspaper posted an article about scientific articles of Azerbaijani authors, which have been included in Web of Science database. The article also deals with "Khazar Journal of Humanities and Social Sciences" which is published by Khazar University.

The full article is available at:

http://kaspiy.az/news.php?id=81081



BƏDİRXAN ƏHMƏDLİ,
professor

LƏYAQƏTİN ANATOMİYASI

Hamlet İsaxanlının 70 yaşına

"525-ci qəzet"in 5 may 2018-ci il tarixli nömrəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının poetik yaradıcılığı haqqında dərc olunmuş məqaləni təqdim edirik.

Hamlet İsaxanlı ixtisasca riyaziyyatçıdır, bu onun yaradıcılığının ana xəttidir, çoxparametrli spektral nəzəriyyə üzrə bir çox elmi əsərlərin müəllifidir. Həm bir alim, həm də təhsil işlahatçısı kimi ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Kanada, Almaniya və b. ölkələrdə yaxşı tanınır.

Onun yaratdığı Xəzər Universiteti bu gün də Azərbaycan təhsil sisteminin önündə gedən məkandır. Ədəbiyyat, mədəniyyət və incəsənətin, siyasi və media mədəniyyətinin inkişafında müəyyən rolu var. Bütün bunlar və sadalaya biləcəyimiz bir çox əli keyfiyyətlər Hamlet İsaxanlının Azərbaycan cəmiyyətində çoxdan formalaşmış, hamı tərəfindən qəbul edilmiş obrazıdır. Ancaq yeni minilliyin ilk yüzilliyində biz onu həm də bir şair kimi tanıdıq. Bəlkə bunun bir rəmzi mənası da var. Görkəmli adamların ömrün müəyyən dayanacaqlarında poeziyaya müraciəti çox olmuşdur. Riyazi təsliklərin poeziyasından həyatın poetik ifadəsinə keçmək özünüifadənin bir yoludur. Üstəlik gəncliyindən şeirlər yazmasına rəğmən, son illərdə çap etdirməyə başlayıb: "Təzadlar" (2001), "Bu da bir həyatdır" (2004), "Dördlüklər" (2007), "Ziyarət" (2009) və s. kitabları işıq üzü görüb. Şeirləri rus, ingilis, çin, gürcü, eston, türk və başqa dillərə tərcümə edilib. Ancaq bu tarix onun poeziyaya gəlişinin başlanğıcı deyil; uzun müddət yaradıcılığının ana xətti riyaziyyat poeziyanı üstələsə də, sonunda poetik yaradıcılığı boy göstərib. Biz də burada Hamlet İsaxanlının poetik yaradıcılığından söhbət açacağıq.

Ədəbi prosesə müstəqillik dövründə daxil olan H.İsaxanlının poetik yaradıcılığı hiss ilə fikrin, ağıl ilə bədii təxəyyülün qovuşuğundan yaranıb. Olsun ki, bu müəllifin elm adamı, riyaziyyatçı olmasından irəli gəlib. Şairin təbiətində elmi təfəkkürlə bədii təfəkkür sintez şəklində qovuşub. Onun poeziyası ilk baxışdan sadəliyi ilə fərqlənir; belə ki, həm forma, həm də məzmun baxımından ənənəvi görünür, lakin bu heç də şairin ənənəvi poeziya yollarında hərəkət etməsi anlamına gəlməməlidir. Şeirlərində heca, hecalı sərbəst, ritmik sərbəst, eləcə də digər vəznlərin qovuşuğunu və qarışıq istifadə poetik təkamülünün əsas xüsusiyyətlərindən biri kimi səciyyələnir. Ənənəvi formanın özü belə şairdə yeni bədii təsvir və ifadə vasitələrindən, poetik fikrin yeni formada ifadəsini şərtləndirir. H.İsaxanlının şeirlərində ideya qaranlıq bir kölgə altında, yaxud qatı duman içində gizlədilmir, açıq tendensiya ilə deyildiyindən şairin məqsədi də oxucuya tez çatır. Məzmun etibarilə də bu şeirlərdə yeni poetik fikir formalaşdırılır; burada sevincdən, qəmdən, kədərdən yaranan şeirlərlə yanaşı, sadəcə hər hansı əhvali-ruhiyyəni əks etdirən ovqat düşüncəsi də aparıcı olur. Az sözlərlə mənalı fikir ifadə etmək H.İsaxanlı poeziyasının səciyyəvi cəhətlərindəndir. Ümumən, həyat və ömür haqqında böyük və kiçik həcmli şeirlər çoxdur; H.İsaxanlı isə cəmi üç sətirdə həyatın fəlsəfəsini belə ifadə edir:

Ömür var, mənası -ye, iç, yat,
Nə dərin həyəcan, nə fəryad.
Sevdasız bir həyat-nə həyat?!

Bütün bunlar patetik səslənmir, şairin dünyaya baxışının yeni bədii formulu kimi səslənir. Bu şeirlərin hər birinin əsasında fikir durur, məhz bu fikir şeirin ideyasının strukturunu təşkil edir; lakin bu surroqat şəkildə deyil, obrazlı şəkildə ifadə olunur. Şairin əksər şeirlərində elmi mühakimə, fəlsəfi çalarlarla bədii təxəyyül qoşa qanad kimi çıxış edir. Həyatımızdakı təzadlar yeni donda və biçimdə təqdim olunur; bəzən bütöv bir şeirdə, bəzən isə bir misrada həyatın fəlsəfi çalarlarını verməyi bacarır.

"Saçımda meh gəzir, ayağımda şeh", "Bu nə sevgi, nə fəlsəfə? Sevməyənlər kef-damaqda", "Ömrümüzdən keçən illər, Bəhsə girdi xeyirlə şər", "Təklikfikrimizn səsləndiyi Ən uca yüksəklik" və s. misralarında dünyanın, gerçəkliyin, həyatın antitezaları açılır. Onun şeirlərində fikrin, məntiqi mühakimənin olması yeni poetik mətnlərin yaranmasına nədən olur. Bu mətnlər strukturuna görə yeni olduğu kimi, safdır, bulaq suyu kimi təmizdir, lüzumsuz təfərrüatdan, gəraksiz ricətlərdən uzaqdır. Bu mənada şairin şeirləri müəyyən ölçüyə malikdir; heç zaman əndazəni aşmır, fikri uzatmır, parıltıdan, dəbdəbədən qaçır. Adi, tanış və sadə sözlərlə həyatdakı, təbiətdəki qeyri-adiliyi göstərməyə çalışır:

Əyildim otlara diz üstə çökdüm,
Güllərin ətrini içimə çəkdim.
Günəş də telini çəmənə sərdi
Daha nə möcüzə istəyəcəkdim.
Yeridim meşələr, dağlar arası
Meh əsdi, yarpaqlar səs-səsə verdi.
Bəlkə məlhəm tapa könül yarası
Üşümüş qəlbimdə bir od közərdi.

Bir şair kimi Hamlet İsaxanlı poeziyasının səciyyəvi cəhətləri çoxdur; ancaq onlardan ən başlıcası hisslərinin, duyğu və düşüncələrinin təbiiliyi və səmimiliyidir. Şairin son iyirmi ilin ədəbi prosesində (şair üçün bu elə də böyük bir zaman deyil!) özünü təsdiq etməsi və şeirlərinin bu qədər geniş əks–səda doğurmasını şərtləndirən amillər də məhz bununla bağlıdır. Şair bədii axtarışlarında, demək olar, vaxt itirmədi, yeni, orijinal poetik tapıntılarla özünün gələcək poetik yolunu müəyyənləşdirdi. Hər bir şair üçün bu əsas şərtlərdən biridir. H.İsaxanlı da müxtəlif formalı, janrlı şerlərdə bədii axtarışlara, poetik fikrin orijinallığına xüsusi fikir verdi. Ən kiçik şeirində belə həyat, dünya ilə bağlı duyğularını, poetik fikirlərini orijinallıqla ifadə etməyə çalışdı. O, yaxşı başa düşürdü ki, poeziyada deyilməmiş fikir yoxdur, ancaq onu yeni formada, orijinal ifadə tərzi və metaforalarla təsvir etmək şair fərdiyyətinin ömürlüyü ola bilər. Bu cəhətdən şairin şeirlərində ənənəvilikllə yenilikçilik yanaşı durur. Bunu nəzərdə tutan fəlsəfə elmləri doktoru C.Mustafayev yazır: "Hamlet Isaxanlı bizim poeziya ənənələrimizə yeni yolla yanaşır. Bu yenilik özünü Hamlet İsaxanlı yaradıcılığında söz və canlı mənanın dialektik vəhdətində göstərir. Həqiqət budur ki, yaradıcı məna daşımadan heç bir poetik söz uzun müddət yaşamaq haqqı qazana bilmir. Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır. Hamlet İsaxanlının şerlərini oxucular özlərinin mənəvi – estetik maraqlarına, zövqlərinə uyğun kəşf edəcəklər".

H.İsaxanlının yaradıcılıq sirri də məhz bundadır; onun yaradıcılığında məhəbbətdən başlamış dünya hadisələrinə qədər müxtəlif mövzular, yeni semantikada, üslubda təqdim olunur. Müxtəlif problematikalı şeirlərində dünyanın, həyatın dərki başlıca yer tutur. Həyatın filosofcasına dərki H.İsaxanlı poeziyasının səciyyəvi xüsusiyyətidir; burada həyat da var, həyatın təzadları və ziddiyyətləri də var, bir də bunlardan çıxan məna, poetik məntiq var. "Son xatirələr", "Məndən sonra", "Sənsizlik", "Dəniz sahilində görüş", "Ya sən, ya heç", "Nə olardı" və s. şeirlərində həyata, dünyaya yeni baxış bucağından baxır. Bu cəhətdən "Son xatirələr" şeirinə nəzər salaq. Belə ki, xatirə, ölümdən sonrakı həyat həmişə maraq doğurub, H.İsaxanlının şeirində isə bu həyatın fəlsəfi dərki özünəməxsus şəkildə verilir. Zahirən hamıya məlum bu həyat şeirdə yeni biçimdə və yeni metafora ilə anladılır:

Getdiyim yol qırılacaq
Bir gün tamam bitəcək.
İçimdəki payız rəngli xatirələr
Yarpaq-yarpaq budağından üzüləcək,
Töküləcək, itəcək
Elə o gün ömrüm sona yetəcək
Səsim bəzi qulaqlarda qalacaq
Kimlərsə şeirimdən ilham alacaq
Sözümü kimlərsə yada salacaq-
Adamın allahı var
Yada salmaqdan bezmir insanlar.

Burada ideya, ideyanın büründ ü yü bədii struktur və düşüncə konstruksiyası da yenidir; həyat mürəkkəbdir, mürəkkəb olduğu qədər də ziddiyyətlidir; lakin bu həyatdan bizdən sonra qalacaq xatirənin özünün ömrü necə olcaq? O nə zaman bitəcək? Həyat haqqında verilən bu suallar həyatın özünün obrazını yaratmış olur. Sonuncu bənddə şairin bu ömürlə bağlı fəlsəfi qənaətləri ümumiləşdirilir. Özü də şair sonuncu hissəni (poetik qənaətlərini!) tamamilə yeni ahəng və intonasiyada təqdim edir. Parçanın ümumi ahəngi ilə strukturin daxili dinamizmindəki gələcək zaman şəkilçiləri şeirin döyünən ritmini müəyyən edir:

Olacaq, çox işlər olacaq...
Dünya yeni insanlarla dolacaq
Mənə bağlı xatirələr
Seyrələcək, saralacaq, solacaq,
Yarpaq-yarpaq budaqlardan üzüləcək,
Töküləcək, itəcək-
Xatirə də bir həyatdır, bir ömürdür
Bir gün o da bitəcək.

Hamlet İsaxanlının poeziyasını səciyyələndirən başqa bir xüsusiyyət onun şeirlərinin yeni düşüncə tərzi və formalardan istifadə etməsindədir. O, hecada yazdığı kimi, sərbəst və ya ritmik sərbəstdə də yazır. Şairin heç bir ənənə çərçivə sığışmayan, azad, sərbəst ifadə formasıyla seçilən poeziya nümunələri də var ki, burada heca ilə sərbəstin qovuşuğu aydın hiss olunur. Bu cür şeirlərində şair yeni formalar yaratmış olur. Sərbəst şeirin özündə belə daxili bölgülərdə qafiyələrlə şeirin intonasiyasını təmin edir. "Qaranlıq işıq", "Dəniz sahilində görüş", "Hər sevən yetməz kimsə", "Bu nə sevgi, nə fəlsəfə", "Ya sən, ya heç" və s. şeirlərinin hər birinin özünəməxsus daxili bölgüsü və bu bölgüdən yaranan orijinal ritmi var:

Saçımda meh gəzir, ayağımda şeh
Xəyalım sevdalı, əməlim saleh
İçdiyim su zəm-zəm,
şair ruhum dəm...
Duyan varmı görən?
Varsa-xeyli kəm...
Düşünürəm hərdən: meydanda təkəm
Mənə soyuqdur
Ölmüşəm, ortadan götürən yoxdur

H.İsaxanlının şeirləri müxtəlif mövzuludur; burada məhəbbət, dünya, həyat, insan mövzusu şairin poetik yaradıcılığının əsasını təşkil edir. "Səni sevdim çox sadəcə" şeirində real dünyəvi sevginin sadə gözəlliyi, "Səs" şeirində isə gözəlliyi könüllərin vəhdətini yaradan əcazkar qüvvə kimi anladır. "Ölümə nə var ki" şeirinin leytmotivini dünya, yaşamaq uğrunda mübarizə zərurəti təşkil edir və yaşamağın ölməyə gedən yol olduğu vurğulanır. "İstanbul, Boğaziçi" şeiri isə duyğusal bir şeirdir; burada insanın təsəvvüründə ani olan, amma unudulmaz etüdlər canlandırılır və dünyanın bütün ayrılıqları xatırladılır. "Səni sevdim çox sadəcə" şeirində vətən məhəbbəti əks etdirilir. Təsadüfi deyil ki, şair Zəlimxan Yaqub bu şeiri Səməd Vurğunun "El bilir ki, sən mənimsən" sözləri kimi sadə və gözəl olduğuna diqqət çəkir. Şairin «Şər və xeyir», «Ömrün harasındayıq?», «İşıq və qaranlıq», «Ot kökü üstə bitər» kimi şeirləri oxucuya yüksək mənəviyyat aşılayır. "Dənizdə bir quş" şeirində mənəvi dünyasındakı təlatümlərin mahiyyətini axıracan dərk etmək, duymaq üçün dənizdə ağlayan quşu Vətəndə, ya qürbətdə, uzaqda, ya yaxında olmağından asılı olmayaraq, arzularını göyərdə bilməyən insan kimi təsəvvür edir.

H.İsaxanlı formasından asılı olmayaraq bütün şeirlərində həm də bir filosof kimi çıxış edir; dünya, cəmiyyət, təbiət haqqında poetik fikirlər onun şeirlərində səpələnmiş haldadır. Hər bir şeirinin sonunda sanki fəlsəfi ümumiləşdirmələr aparır. Onun heç kimə bənzəməyən yazdığı formalarda (rübailər, bayatılar, yarpaqlar, məcazlar) fəlsəfi məzmun həm də formanın özünün mahiyyətindən gəlir. Şair burada heç kimin nə formaca, nə də məzmunca getdiyi yolu getməmiş, poeziyanın estetik mahiyyətini ruhuna hopdurmuşdur. Rübai və bayatı forması ənənədən gəlmədir, ancaq bu ənənəvi formada şair poeziyamıza tamamilə yeni ifadə tərzi gətirmişdir. Onun dördlükləri fəlsəfi təzadlarla zənginliyi ilə seçilir. Forma və poetik struktur cəhətdən tamamilə yeni olan bu dördlüklərdə hadisə və predmetlərin özünəməxsus əlaqə formaları poetik təhlilə cəlb edilir və fəlsəfi nəticələrə varılır. Rübailərdə həyat və dünya hadisələri yeni rakursda təsvir edilir:

Başlanğıc olubsa, söylə, o nədir?
Öncə kainatdır, ya düşüncədir?
Məhdud ağlımızla əbədiyyəti
Dərk edə bilmirik, iş çox incədir.

Yaxud:

Dərin bir ahənglə dövr edir aləm
Mən bu dərinlikdən hali deyiləm
Yığın-yığın kitab gözləyir məni
Ömür yetməyəcək, budur dərd-ələm

Bu cür rübailər çağdaş poeziyamı yalnız forma, poetik struktur cəhətdən deyil, həm də məzmun etibarilə zənginləşdirir. Şair hadisələrə yalnız bir müstəvidən baxmır, damla ilə dəryanın vəhdətindən çıxış edir, gecə-gündüz, yaxşı-pis, dərinlik-səthilik kimi təzadlar şairin həyat haqqında düşüncələrini poetik təfəkkürdən keçirir. Şairin rübailərində analitik təfəkkür həyatı, dünyanı an, məqam kontekstində deyil, bir dəfə yaşanmış ömrün poetik qənaətləri kimi ortaya çıxır.

H.İsaxanlının istər rübailərində, istərsə də bayatılarında insan, dünya, həyat xeyir-şər müstəvisində təhlil edilir. Ənənəvi bayatı formasında şair yeni dünya insanını düşündürən problemləri son dərəcə lakonik şəkildə göstərir. Şair ətrafımızda, dünyamızda yer tutan şərin əleyhinədir, onu yaxına buraxmamağı bildirir:

Ətrafı tutarsa şər
Ürəyi boğar kədər
Yanıb-yaxılar ürək
Yana bildiyi qədər.

H.İsaxanlının özünəməxsus bu formalardan yarpaqları forma-məzmun vəhdəti baxımından çağdaş poeziyamızı zənginləşdirir. Xüsusi qafiyə və heca məhdudiyyəti olmayan yeddilik, onbirlik və onbeşliklərdən ibarət yarpaqlarda təzadlar və kontrastlar poetik fikrin çatdırılmasında yeni forma kimi diqqəti

cəlb edir. Bu formanın həm hecalarda, həm də qafiyələnmədə verdiyi sərbəstlik şairin dünyaduyumunu poetik şəkildə əks etdirməyə imkan verir:

Fikir karvanını saxlamaq olmaz
Ağıl güc gəlsə də ürək aldatmaz
Qarşıda nə varsa yaradan qurur
Könlümsə keçmişlə oturub-durur.

Ümumiyyətlə, H.İsaxanlının poetik yaradıcılığında forma məhdudiyyəti yoxdur; o, eyni dərəcədə xalq şeiri üslubunda, qəzəl janrında da yazır və ən əsasını-özünü ifadə edə bilir. Aşıqsayağı, xalq mahnısı üslubunda şeirlərinin olması da bunu deməyə əsas verir. "Qədər bumu?" qəzəli bu cəhətdən diqqəti cəlb edir. Əslində qəzəllərin adı şeirin birinci misrası ilə adlanmalıdır. Lakin şair ona xüsusi ad vermişdir. Buna baxmayaraq, qəzəl forma-məzmun vəhdəti baxımından yeni dövrdə janrın imkanlarını daha da genişləndirmişdir:

Səni itirmək qorxusu məni məhv edir, gözəlim
"Candan şirin nə var?!" deyən, vallah, səhv
edir, gözəlim.
Can şirindir o halda ki, candan şirin
cananı var
Könül o cananı istər, can da o cana can atar.
Həyatımda tutduğun yer, gözəl, necə də
dərinmiş
İllərlə bəslənən sevgi candan qat-qat çox
şirinmiş.
...Dünyada hər növ insan var-böyük, kiçik,
adlı-sanlı...
Gülüm, sənsiz ölür biri-yazıq, fağır İsaxanlı...

Hamlet İsaxanlı yaradıcılığında poema janrına da müraciət edir; çağdaş poeziyada bu janr əvvəlki dövrlərə nisbətən bir qədər geri çəkilsə də, yeni formaları yaranmaqdadır. Bu mənada şairin "Ziyarət" poeması xüsusi yer tutur. Ayrı-ayrı şeirlərdən ("Şükür gəldik kəndimizə", "Dilimiz gödək olmasın", "O gözəllik qocalmışdı", "Yaşadığım mənə yetər", "Könül səsi" və s.) ibarət olan poemada şair doğulduğu yerin, həyati, olub-keçmiş, lakin əbədi iz salan hadisələrin etnoqrafik təsvirini verir.

Poema xatirə-retrospeksiya formasında qələmə alınmışdır. Uzun müddətdir ki, anamı ziyarət etməyən oğul nəhayət "doğulduğu", "boy atdığı" kəndə gedir. Yaddaş poemanın leytmotivinə çevrilir. Ana obrazı əsərdə simvollaşır, yalnız konkret bir kəsi dünyaya gətirən qadını deyil, həm də həmin adamın dünyaya gəldiyi ocağı, yurdu, eli-obanı təmsil edir və vətən məfhumu ilə eyniləşir. Uzun müddətdir oğlu ilə görüşməyən Ana bu görüşü qismət hesab edir. Bununla şair insanın öz kökündən ayrılmadığını, daim onunla nəfəs aldığını, yaddaşında kök saldığını göstərmək istəmişdir. O, haraya getsə, harada yaşasa da, yaddaş da onunla bərabər yaşayır və nəhayət onu yenidən geriyə qaytarır. Şair konkret hadisələri təsvir etməklə yanaşı, lirik kənaraçıxmalarda insan – dünya – zaman problemino də nəzər salır. Poemanın "Çaylar axmazmış tərsinə" hissəsində doğma yurduna qayıdan qəhrəmanın dili ilə xatirələri belə təsvir edir:

Gördüm ki, doğma evdəyəm...
Ev o evdir, bağ da o bağ
Həm böyüyəm, həm də uşaq...
Yaşıllaşıb yaza sarı
Yumşaq söyüd budaqları.
Canıma soyuq dolubdu
Qışla yazın arasında
Əllərim çat-çat olubdu.

"Ziyarət" poemasında yurda bağlılıq, ona qovuşmaq və onu qorumaq hissi poetik şəkildə təlqin edilir. Açıq tendensiya ilə deyilməsə də, yurda sədaqət, doğma torpağa bağlılıq poemanın əsas leytmotividir.

Ümumiyyətlə, H.İsaxanlı poeziyasında özünün daxili aləmini, düşüncələrini, həyata baxışını ifadə edir, bu aləmdən gələn sualları oxucuya ünvanlayır. Oxucu da bu suallara cavab tapmağa çalışır. Burada obrazlılıq və obrazlar mahiyyət etibarilə yenidir, poetik fikirlərində daxili hərəkət, dinamizm etkileyicidir, güclüdür. Bu şeirlərin başlıca obrazları insanın əzəli və əbədi atributları ləyaqət, mənəviyyat, düzlük, doğruçuluq, sədaqət, sevgidir. Bu mənada H.İsaxanlının poeziyası həm də şəxsi ləyaqətinin, mənəviyyatının və istedadının anatomiyasıdır; necə varsa, eləcə də görünür...

AN ARTICLE ABOUT HAMLET ISAKHANLI'S POETIC CREATIVITY

On May 5, 2018, "525-ci qəzet" published a voluminous article "*The anatomy of Dignity*" by Prof. Badirkhan Ahmadli, which is dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, poetic creativity. The author precisely studies and interprets specific original features of poems by Hamlet Isakhanli.



THE SAME KOMANDASI İLK İNTERAKTİV SEMİNARINI BAMF - IN OFİSİNDƏ KEÇİRDİ

Mayın 4-də THE SAME komandasının və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təşəbbüsü ilə BAMF-ın ofisində Xəzər Universiteti və müxtəlif universitetlərin tələbələri arasında "İrqçilik və iqtisadi inkişaf" mövzusunda interaktiv seminar keçirildi.

BAMF-ın prezidenti Umud Mirzəyev mövzunun aktuallığından və THE SAME komandasının üzərinə götürdüyü missiyanın vacibliyindən danışdı. THE SAME komandasının üzvü Taliyə Hüseynzadə auditoriyanı "Peer to Peer: Facebook Qlobal Rəqəmsal Çağırış" müsabiqəsi ilə tanış etdi. THE SAME komandasının üzvü Etibar Saatov iştirakçılara mövzu barədə geniş məlumat verərək, onlara iki mövzuda qrup işi təqdim etdi: 1) "Zəif inkişaf etmiş ölkələrdə ayrı-seçkiliyin səbəbləri və həlli yolları"; 2) "İnkişaf etmiş ölkələrdə irqçiliyin səbəbləri".

Qrup işi seminarın interaktiv keçməsinə və iştirakçıların fikir mübadiləsi aparmasına kömək oldu. Sonra tədbirin əyləncəli və yadda qalan keçməsi üçün THE SAME komandasının üzvü Xəyalə Sıxəliyeva oyunun qaydalarını izah etdi. Komandanın rəhbəri, İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Bahadır Baysal iştirakçılara uğur arzu edərək, onlara belə seminarların gələcək iş həyatlarında necə önəmli olaçağı haqda danışdı.

Məşhur Volqoqrad yazıçısı Aleksandr Tusukanov tədbirə qoşularaq, mövzunun vacibliyini auditoriyaya çatdırdı və auditoryanı yeni maraqlı fikir barəsində düşünməyə çağırdı.

Sonda xatirə şəkli çəkilərək, hər bir iştirakçıya sertifikat paylandı.

Bu linklər vasitəsilə daha ətraflı məlumat əldə etmək olar:

http://eurasiadiary.com/az/news/society/278162-bamf-in-ofisinde-irqcilik-ve-iqtisadi-inkisaf-movzusunda-seminar-kecirilib

http://eurasiadiary.com/en/news/society/278107-workshop-on-racism-and-economic-development-held-in-the-iepf-office



FIRST INTERACTIVE WORKSHOP OF "THE SAME" TEAM

On May 4, on initiatives of "THE SAME" team and International Eurasia Press Fund (IEPF), an interactive workshop on "Racism and Economic Development" was held among the students of Khazar University and other universities in the office of IEPF.

Firstly, Umud Mirzayev, President of IEPF, talked about the importance of the topic and the mission of "THE SAME" team. Then Taliya Huseynzadeh, a team member of "THE SAME", informed the audience about the competition "Peer to Peer: Facebook Global Digital Challenge". Etibar Saatov, a team member of "THE SAME", gave the participants detailed information about the topic and presented them with two group works with the following topics: 1) "The reasons of, and solutions to racism in poorly developed countries"; 2) "The reasons of racism in developed counties".

Within the group works, participants had interactive discussions and exchange of views. Then Khayala Shikhaliyeva, a team member of "THE SAME", explained the rule of the competition to make the event memorable and entertaining. Then, the leader of the team and Coordinator of the Economics and Management department, Dr. Bahadir Baysal, wished participants success and mentioned the importance of such workshops for a future career.

Aleksandr Tusukanov, a prominent writer of Volgograd, joined the event and stressed the importance of the workshop and encouraged the participants to think about new interesting ideas.

At the end of the event, the participants were certified and a memory photo was taken.

For further detailed information:

http://eurasiadiary.com/az/news/society/278162-bamf-in-ofisinde-irqcilik-ve-iqtisadi-inkisaf-movzusunda-seminar-kecirilib

http://eurasiadiary.com/en/news/society/278107-workshop-on-racism-and-economic-development-held-in-the-iepf-office

İSMAYILLIDA ŞAGİRDLƏRLƏ GÖRÜŞ

Mayın 5-də Xəzər Universitetinin Tələbələrin cəlb olunması üzrə işçi qrupunun rəhbəri professor Fuat Rəsulov, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli və Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova İsmayıllı şəhərində fəaliyyət göstərən Niyal Hazırlıq Kurslarının Xəzər Universiteti ilə birgə təşkil etdiyi " Peşə seçimi və gələcəyim" adlı seminarda iştirak etmək məqsədilə adıçəkilən rayona səfər etdilər.

Tədbir İsmayıllı rayonunun Uşaq-Gənclər İnkişaf Mərkəzində təşkil edilmişdi. Görüşü Niyal Hazırlıq Kurslarının müdiri Həsən Məmmədov açdı. O, qonaqları salamladı, hazırlıq kursları barəsində qısa məlumat verdi və sonra sözü Xəzər Universitetinin nümayəndəsi Ələvsət Əmirbəyliyə verdi.

Ə.Əmirbəyli Xəzər Universiteti və ixtisaslar barədə məlumat verdi, seminara gələn iştirakçılara öz təşəkkürünü bildirdi. Sonra isə sözü Mələk Kərimovaya verdi. M.Kərimova abituriyentlərə qəbul imtahanından əvvəl yaşaya biləcəkləri həyəcan zamanı nələr edə biləcəkləri haqqında məlumat verməklə yanaşı, peşə seçimində qərarsızlıq yaşayanlara da məsləhətlər verdi.

Seminar interaktiv şəkildə keçdi, mövzu ilə bağlı müzakirələr aparıldı və suallar cavablandırıldı.

Professor Fuat Rəsulov iştirakçılara peşə seçimi ilə yanaşı, seçilən universitetin də önəmli olduğunu qeyd etdi və Xəzər Universiteti ilə bağlı videoçarx nümayiş etdirərək, Xəzər Universitetinin üstünlükləri, universitetin məzunlarının uğurları, güzəştli qəbul şərtləri və s. məsələləri açıqladı.

Tədbirdə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin üçüncü kurs tələbəsi Toğrul Nəbiyev də çıxış edərək, universitetdəki təlim və tədris mühiti, tələbələr üçün yaradılmış əlverişli şərait haqqında danışdı.

Tədbiri İsmayıllı Rayon Təhsil İdarəsinin metodisti Rəşid Məmmədov yekunlaşdırdı və qonaqlara dərin minnətdarlığını bildirdi. O, Xəzər Universitetinin müəllimlərinin İsmayıllı rayonuna gələrək, məktəblilərlə canlı ünsiyyət qurmasını yaddaqalan bir hadisə kimi dəyərləndirdi.

Tədbirin sonunda iştirakçılara Niyal Hazırlıq Kurslarının rəhbəri ilə birgə imzalanmış Xəzər Universitetinin sertifikatları təqdim edildi, bloknot və qələmlər hədiyyə olundu.

Sonra qonaqlar iştirakçılarla bərabər xatirə şəkli çəkdirdilər.

MEETING WITH STUDENTS IN ISMAYILLI

On 5 May, Fuat Rasulov, Coordinator of working group for prospective students, Alovsat Amirbayli, Director for Public Relations and Media, and Melek Kerimova, Director of Khazar Psychological Service Center, visited Ismayilli to participate in the workshop "Choice of Profession and My Future" jointly organized by Niyal Tutoring Course and Khazar University.

The meeting was held at Child and Youth Development Center in Ismayilli district. Hasan Mammadov, Director of Niyal Tutoring Course, opened the meeting. After greeting the guests, he talked about tutoring courses and then gave the floor to Alovsat Amirbayli.

Alovsat Amirbayli informed the participants about Khazar University and specialites offered by the University. He was followed by Melek Kerimova who gave students necessary advice to overcome nervousness on the eve of exams, and also provided those with advice who hesitated to make a decision on a profession.

The workshop was based on interactive discussion during which University associates answered participants' questions. Fuat Rasulov added that the choice of university was as important as the choice of profession. A promotional video clip was demonstrated at the meeting. Moreover, the associates talked about the advantages and preferential admissions terms of Khazar University.

Toghrul Nabiyev, a student of the School of Economy and Management, delivered a speech at the meeting and underlined encouraging academic and suitable environment at Khazar University.

Rashid Mammadov, the expert of Department of Education of Ismayilli district, delivered a closing speech and expressed his gratitude to associates of Kazar University whose visit to Ismayilli was considered as a remarkable event.

At the end, the participants were presented with certificates, signed by University associates and Director of the course, as well as notepad and pens. Then a memory photo was taken.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100 1918 2018


"XƏZƏR"İN ƏMƏKDAŞI KİTAB TƏQDİMATINDA

Mayın 5-də Bakı Atatürk liseyində görkəmli ədib, tarix tədqiqatçısı Teyyub Qurbanın vəfatından sonra çapdan çıxmış, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Yüz tələbə, yüz tale" kitabının təqdimatı keçirilmiş, müəllifin xatirəsi yad edilmişdir.

Tədbiri liseyin tarix müəllimi, kitabın çapının təşəbbüskarı və ön sözün müəllifi Elmar Həsənli açaraq, kitabın çapa hazırlanması prosesində Teyyub Qurbanla görüşlərindən danışmış, kitabın çapa hazırlandığı "Şur" nəşriyyatının rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirmişdir.

Kinorejissor Nazim Rza, tarixçi alim Firdovsiyyə Əhmədova, "Şur" nəşriyyatının direktoru Musa Ələkbərli, kitabın redaktoru Qəranfil Dünyamınqızı, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev və digərləri öz çıxışlarında Teyyub Qurbanın 30 il ərzində Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadəyə həsr olunan və çümhuriyyət mövzusuna aid əsərlər üzərində böyük ilham və fədakarlıqla çalışaraq bütün ədəbi janrlarda – poeziya, proza, dramaturgiya və publisistika janrlarında məşhur əsərlər yaratmasından bəhs etmişlər.

Sonda ədibin oğlu Asəf Qurbanov tərəfindən kitabın imzalanma mərasimi keçirilmişdir.



KHAZAR'S ASSOCIATE IN BOOK PRESENTATION

On May 5, the book, posthumously published, "*A hundred students, a hundred fates*" dedicated to 100th anniversary of Azerbaijan Democratic Republic was presented in Baku Ataturk Lyceum. The author of the book is Teyyub Gurban, an outstanding writer and historian.

Elmar Hasanli, a History teacher of the Lyceum, an initiator of publication of the book and author of the foreword, opened the event and talked about his memories with Teyuyub Gurban. He also expressed his gratitude to administration of "Şur" publishing-house for publication of the book. Nazim Rza, film director, Firdovsiyya Ahmadova, historian, Musa Alakbarli, Director of "Şur" publishing-house, Garanfil Dunyamingizi, Editor of the book, Honored Journalist Alirza Balayev, deputy editor of Khazar Review magazine, talked about Teyyub Gurban who studied Azerbaijan Democratic Republic and Mammad Amin Rasulzadeh, the founder of the Democratic Republic, with passion for 30 years, and produced prominent masterpieces in various genres such as poetry, prose and drama.

At the end, Asaf Gurbanov, the son of the author, signed the books.



Şirvan Milli Parkına ekskursiya

Mayın 13-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə yerşünaslıq fənnindən Şirvan Milli Parkına ekskursiya təşkil olundu.

Çöl tədqiqatı zamanı tələbələr öncə ceyranların məskəni olan Şirvan Milli Parkında ceyranlar haqqında məlumat topladıqdan sonra Bəndovan dağı – palçıq vulkanı, dəniz sahili – Laquna və Flaminqo gölləri marşrutları ilə hərəkət etdilər. Palçıq vulkanı, Laquna və Flaminqo gölləri haqqında ətraflı praktiki bilikər aldılar.

Excursion to Shirvan National Park

On May 13, on an organizational support of the Department of Geography and the Environment, students went on an excursion to Shirvan National Park within the discipline of Physical Geography.

Within field research, students were informed about gazelles in Shirvan National Park, a dwelling of gazelles. Then students took a route through Bandovan mountain, a mud volcano, as well as the seaside - Lake Laguna and Lake Flamingo. Students were also enlightened about the mud volcanoes and lakes.

Xəzər Universitetinin məzunu prorektor təyin olundu

Azərbaycanın media orqanlarının verdiyi xəbərə görə, Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramovun əmri ilə Xəzər Univeritetinin məzunu Anar Yaşar oğlu Rzayev UNEC-in (Azərbaycan Dövlət İqtisad Universiteti) Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru təyin edilmişdir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://report.az/en/education-and-science/new-pro-rector-of-unec-appointed/;

http://www.abc.az/en/news/9692;

http://demokratikmusavat.com/article/en/62614-New+appointment+at+UNEC.html;

https://en.trend.az/azerbaijan/society/2904042.html

Khazar University graduate appointed Vice - rector

According to media, by the order of the Ministry of Education, Jeyhun Bayramov, Anar Yashar oghlu Rzayev, a Khazar University graduate, has been appointed as a Vice-rector on International Relations and Programs of UNEC (Azerbaijan State University of Economics).

Further information is available at:

https://report.az/en/education-and-science/new-pro-rector-of-unec-appointed/;

http://www.abc.az/en/news/9692;

http://demokratikmusavat.com/article/en/62614-New+appointment+at+UNEC.html;

https://en.trend.az/azerbaijan/society/2904042.html.

"XƏZƏR"İN ƏMƏKDAŞLARI ÖLKƏ VƏ XARİCİ SİMPOZİUMLARDA

KHAZAR UNIVERSITY STAFF AT LOCAL AND INTERNATIONAL SYMPOSIUMS

***

Aprelin 26-da **Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Valida Karimova** (doktorant) Bakı Slavyan Universitetində təşkil edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş Respublika Elmi-Praktik Konfransında "N.Çomskinin dilçilik araşdırmalarının mahiyyəti" mövzusunda məruzə etdi. Məruzəsində apardığı tədqiqat işi ("N.Çomskinin sintaktik təlimində cümlənin alt və üst qat anlayışı"), onun mahiyyəti, elmi yeniliyi, Azərbaycan dilçiliyində N.Çomskinin rolu, N.Çomskinin dilçilik görüşləri və s. haqqında iştirakçılara ətraflı məlumat verdi.

Konfransda fakültənin Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan **4-cü kurs tələbəsi Sabrina Ramazanova** da "Depressiya və suisid" adlı məruzəsi ilə çıxış etdi. O, məruzəsində depressiyanın suisidlə necə nəticələnməsi, əsasən hansı yaşlarda daha çox baş verməsi, səbəbləri və qurtuluş yolları haqqında geniş məlumat verdi.

Sonda iştirakçılara məqalələr çap edilmiş toplu və sertifikat təqdim olundu.

On April 26, **Valida Karimova (PhD student), Vice-dean of the School of Humanities and Social Sciences**, delivered a report on "The essence of N. Chomsky's linguistic research" in National Scientific and Practical Conference, held at Baku Slavic University, dedicated to 100th anniversary of Azerbaijan Democratic Republic. Valida Karimova gave detailed information on her research topic ("The concept of lower and upper layers of the sentence in N.Comsky's syntactic study"), its essence, N.Comsky's role in Azerbaijani linguistics, and N.Comsky's views on linguistics. In the conference, **Sabrina Ramazanova, Khazar University student,** also delivered a report on "Depression and suicide". Within the report, she talked about a relation between depression and suicide, main reasons for suicide, and methods for avoiding suicide.

At the end of the conference, participants were presented with certificates and proceedings of conference materials.

***

Aprelin 26-dan 29-dək **Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov** Türkiyənin Kasatamonu Universitetində təşkil olunmuş Beynəlxalq Mühəndislik və Təbiət Elmləri Konqresində iştirak etdi və "Böyük Bakı ərazisində yerləşən göllərdən davamlı istifadə üçün ekoloji dizaynların tətbiqi" mövzusunda çıxış etdi. Rövşən Abbasov, həmçinin, Türkiyənin Kürə Dağları Milli Parkına (*Kura Daglari National Park*) yürüşdə iştirak etdi.

On April 26-29, **Rovshan Abbasov, Head of the Department of Geography and the Environment,** participated in International Congress on Engineering and Life Sciences held at Kastamonu University, Turkey, and delivered a presentation entitled *"Introducing environmental schemes for the management of the urban lake watershed and sustainable use of ecosystem services in Greater Baku Area, Azerbaijan"*. Rovshan Abbasov also joined the march to *Kürə Mountains National Park*.

***

Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimləri - filologiya üzrə fəlsəfə doktoru dosent Dilbər Zeynalova, müəllim Qardaşxan Əzizxanlı, habelə doktorant Ayna Babazadə may 3-4-də Bakı Slavyan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilmiş "Azərbaycanşünaslığın aktual problemləri" adlı IX Beynəlxalq elmi konfransda iştirak edərək, müvafiq bölmələr üzrə iclaslarda "Çağdaş roman yeni paradiqmalar kontekstində" (D. Zeynalova) "Çağdaş poeziyada Bütöv Azərbaycan idealının poetik təramümü" (Q. Əzizxanlı), "Ə.Cəfərzadə nəsrində tarix və bədii təxəyyülün yeri" (A. Babazadə) mövzularında çıxış etmişlər.

Dilbar Zeynalova and Gardashkhan Azizkhanli, Instructors of the Department of Azerbaijani Language and Literature, as well as Ayna Babazadeh, PhD student, participated in IX International Scientific Conference on "Actual Problems of Azerbaijani Studies" dedicated to 95th Anniversary of National Leader, Heydar Aliyev, held on May 3-4, at Baku Slavic University. Within the conference, associates of Khazar University delivered presentations in relevant sessions on the following topics: "Contemporary novel in the context of new paradigms" (D. Zeynalova), "Representation of the idea of United Azerbaijan in modern poetry" (G. Azizkhanli), "History and artistic imagination in A.Jafarzadeh's prose" (A. Babazadeh).




XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları maraqlı görüntüləri lentə almışlar.



Ferid Ağalarov





Kəmalə Ağamalıyeva




Şəbnəm Rüstəmli



Lamiyə Piriyeva



Elvin Kərimov



Vurğun Yusubov



BU, MÜMKÜN DEYİL

(hekayə)

Rut Rendel
(1930 - 2015)
İngiltərə

Başlıqdakı sözlər «Geda Qabler» əsərindən götürülüb. İbsenin qəhrəmanlarımdan biri real hadisələrin çox vaxt xəyal məhsullarından daha sarsıdıcı olduğunu anlayarkən bu fikri səsləndirir. Riv Beykerin arvadının (mənim də dostəyimlə) qətlinə görə hazırda on beş illik həbs cəzası çəkdiyini hər dəfə xatırlayanda elə mən də öz-özümə təkrarlayıram: «Bu, mümkün deyib». Çünki baş verən qətlin üçümüzə də dəxli var. Ancaq nədənsə bəzən belə də olur.

Real həyat mənim nəzərimdə heç vaxt xəyallardan daha üstün olmayıbdır. Bütün dost-tanışlarım kimi, mən də həyatı sırf həzz almaq və göz-könül oxşayan bir şey saymışam. Bircə o Rivi çıxmaq şərtiylə. Mənco, Rivlə dostluq qurmamın əsas səbəbi də onunku ilə öz yaşam tərzim arasındakı kökü fərq idi. Onunla vaxt keçirməyi özüm üçün vazkeçilməz nemət sayırdım mən. Elə buna görə də bizdən çıxıb, öz evinə yollanan Rivi süzərkən razılıq hissiylə Qvendolenə deyirdim: «Kim bilir, bizim bu yaşam tərzimiz Rivə necə də bomboz görünür!»

Maliyyə işləri yolunda getməyən və pul sıxıntısı çəkən Rivə ortaq tanışlarımızdan biri yardım üçün mənə yanaşmağı məsləhət görmüşdü. Bank hesablarından cavabdeh olduğum müştərilər arasında yazarların sayı çox idi və mən onların pulla necə başdansovdu davrandıqlarına yaxşı bələd idim. Öz yaradıcılıq ehtiraslarına hədsiz kökləndiklərini bəhanə gətirən bu adamlar adətən vergilərin ödənişindən yayınmağa çalışırlar. O vaxt mən Rivin maliyyə işlərini səliqə-sahmana saldım və ödənişləri gecikdirməməsi üçün ona bəzi tövsiyələr verdim. Görünür, xəcalətimdən çıxmaq üçün Riv məni və xanımını əvvəlcə restoranda birgə nahar yeməyinə, daha sonra isə evinə dəvət elədi və beləcə, biz səmimi dostlara çevrildik.

Mənim kimi sıradan insanlara yazarlar və onların yaradıcılıq prosesi kifayət qədər cazibədar gəlir. Yazarların öz əsərlərinin ideyasını, oradakı surətləri, onlar arasındakı dialoqları və sairəni haradan götürdükləri mənim üçün həmişə müşkül tapmaca olaraq qalıb və qalacaq. Riv isə bütün bunların ustasıydı: fərq etməz, söhbət XVI Lüdovikdən gedir, yoxsa ki Orta əsrlər İtaliyasından. Rivin qələmindən çıxan doqquz tarixi romanın hamısını oxumuşdum və onun ustalığına, necə deyərlər, dərin heyranlıq duyurdum. Onu da deməliyəm ki, sırf Rivi məmnun etmək xətrinə bu kitabları oxumuşam, çünki əsasən detektiv əsərlərdən xoşlandığım üçün başqa mövzulardakı kitablara nadir hallarda vaxt ayırırdım.

Rivin öz həyatı başdan-ayağa gərgin məqamlarla dolu idi. Qvendolen onun öz əsərlərini də bu qədər dramatizmlə yoğurub-yapmasına heyranlığını bir dəfə dilə gətirmişdi, çünki həyatındakı anlaşmazlıqlardan can qurtarmaq üçün o ən azından bunları kağıza köçürməməliydi. Mənə görə isə, əsl həqiqət onda idi ki, Rivin bütün qəhrəmanları - elə onun özü idi, sadəcə olaraq, o, gah Çezare Borcia roluna girirdi, gah da Kazanova roluna. Qadınların qəlbinə hakim kəsilən bu ucaboylu, əzələli, ehtiraslı kişi surətlərinin arxasında məhz Rivin özünün dayandığını anlamaq bir elə çətin deyildi.

Onunla tanışlığımızdan təxminən bir il əvvəl Riv arvadıyla boşanmışdı və həmin vaxtdan bəri yatıb-durduğu qadınlar arasında manekenlər, aktrisalar, modelyerlər, katibələr, xanım jurnalistlər, müəllimələr, rəhbər vəzifəli xanımlar, hətta bir diş həkimi də vardı.

Bir dəfə Rivin evində qonaq idən o, bizim üçün «Don Juan» operasından ariyanın yazıldığı val oxutdu. Kitablarından birini həsr etdiyi bu ədəbi qəhrəmanla Riv özünü az qala eyniləşdirirdi. Ariya «sizninizlə» adlanırdı və orada Don Juanın sarışın, qaraşın, kürən, sütül, yaşlı, kasıb, zəngin, bir sözlə, bütün məşuqələrinin adları sadalanır və ən nəhayət deyilirdi ki, bir varlığın tuman geyinməsi yetərlidir, bu kişi nəyin bahasına olursa-olsun, ona yiyələnəcək. Qəribə olan bu cəhətdir ki, mən italyancə bircə kəlmə bilməsəm də, həmin fikrin italyancə versiyası yaddaşıma tam dəqiqliklə həkk olunub. Ariyanın bu yerində müğənni melodiyanın taktına uyğun olaraq iyrənc bir qəhqəhə çəkmişdi və arvadbaz personajın hiyləgərliyi bu sayədə aşkar sezilmişdi. Həmin vaxt Riv də qəhqəhə çəkdi və əlavə elədi ki, bu çılğınlıq ona yaxşı tanışdır. Özünün mühafizəkar, adət-ənənəyə bağlı birisi olduğunu yaxşı bilirəm. Mənə görə, seks

- sırf evlilik həyatında keçərlidir, subaylıq dövründə cinsi təcrübəm kifayət qədər dayaz olub, ona görə də mən nikahsız münasibətləri ayıb və həddsiz məhrəm sirr sayıram. Evli olsa-olsa, belə eşq-məşqə can atmağı mən yolverilməz hesab edir, bu barədə dolaşan şayiələri hap-gop və saxta qürrələnmə saydığımdan heç ciddiyə almırdım. Həm də buna bəslədiyim etimad sarsılmaz idi. Hər dəfə Riv mənə yeni bir qızla görüşdüyünü etiraf eləyəndə düşünürdüm ki, o, qızı şam yeməyinə dəvət eləyir, onunla rəqs edir, taksiylə evinə qədər ötürür və ayrılarkən kandarda uzaqbaşı qızın yanağından bir öpüş alır. Ancaq mən yanılırmışam və bu yanılmam onu lançа gözlədiyimiz bir bazar günü zəng edib, üçlükdə bir barda görüşməyi və lançа qədər adama bir stəkan içki içməyi təklif etdiyim vaxta qədər davam elədi.

Riv yarıyuxulu idi, hərəhər olduğu bir qızın hırıltısı dəstəkdə eşidilməkdəydi. O, qıza: «Əzizim, aynına bir şey geyin və mənə qəhvə dəmlə, yaxşımı? Yoxsa başım ağrıdan lap çatlayır», - demişdi.

Mən bu məsələni Qvendolenə açıb, söyləyəndə o:

- Bəs ondan başqa nə gözləyirdin ki? - deyə soruşdu.

- Nə bilim? - dedim. - Hətta səsin də buna həyrətlənəcəyini umurdum.

- Riv yetərincə yaraşıqlı kişidir və vur-tut otuz yeddi yaşı var. Onun üçün bunlar təbii şeylərdir. - Bu yerdə arvadım hırıldayaraq, dedi: - Yox, yox, mən buna heç həyrətlənib eləmirəm. Bizim yaşam tərzimiz onunkundan çox fərqlənir, deyilmi?

Buna rəğmən, biz Rivin həyatından çıxmadıq, eləcə onun bir kənarında ilişib, qaldıq. Daha yaxından tanıdığımızda isə o, əvvəllər yararlandığı oyunbazlıqları bir kənara qoydu, görünür, bunumla bizi cırnatmağa gərək duymurdu artıq. Məsələn, özünün keçmiş və indiki eşq həyatıyla bağlı çox məhrəm məqamları çəkinib eləmədən bizə danışmağa başlamışdı artıq. Məsələn, ona həddiz dərəcədə bağlanan bir qız, Riv ayrıldıqlarını ona elan eləsə də, bir gün gizlicə aşiqinin evinə girib, çılpaq halda onun yatağında uzanıbmış və o axşam növbəti məşuqəsini oraya gətirən ev sahibi əvvəlki sevgilisini o vəziyyətdə yaxalayıbmış. Evli bir qadın ari evi tərk edənə qədər Rivi düz iki saat paltar şkafında gizlədibmiş. Bir funt şəkər tozu istəmək bəhanəsiylə qapısını döyən qonşu qız bütün gecəni Rivin yatağında keçiribmiş. Sarışınlar, qaraşınlar, şişmanlar, tərim əndamlılar, zənginlər, kasıblar barədə nələr, nələr danışırdı o.

Qvendolen demişdi:

- Bu, tamamilə fərqli bir dünyadır.

Mən isə əlavə eləmişdim:

- Bəşəriyyətin ancaq ikinci yarısı üçün bu, beledir.

Belə donuq, sönük ifadələrdən biz tez-tez yararlanırdıq. Bəlkə də bunun səbəbi Qərb cəmiyyətinin orta sinifinə aid olmamız, yaşam tərzimizin bayağılığı, başqalarınınkından heç nə ilə fərqlənməməsi idi. Şəhərin yüksəkdəbli kənar səmtində, təpənin üstə yaraşıqlı bir evimiz, içində isə bahalı mebelimiz və miras sayılacaq, usta işi xalılarımız vardı. Ər-arvad hərəmizə bir maşın almışdıq. Səhərlər doqquzun yarısında ofisə yollanır, axşam altıda evə dönürdüm. Qvendolen evdə yır-yığış edir, dükan-bazarı dolaşır, bizim məhəllənin adəti üzrə səhərlər qonşuluqdakı rəfiqələrini qəhvə içməyə dəvət edirdi. Axşam saatlarını evdə, televizor önündə keçirirdik, bir qayda olaraq, saat on birdə yatmağa yollanırdıq. Mənim ələmimdə, pis ər sayılmırdım, çünki arvadımın doğum gününü heç vaxt unutmurdum, toyumuzun hər ildönümündə mütləq ona qızılgül dəstəsi bağışlayır, qab-qacaq yumaqda yardım edirdim. Qvendolen də misilsiz həyat yoldaşı idi, romantik əhval-ruhiyyəliydi, heç vaxt çılğınlıq sərgiləməzdi. Ən azından mənimlə münasibətlərinə həmişə bir hədd, sərhəd qoyardı. Yaş günlərində, hətta nişanlı olduğumuz vaxt müqəddəs Valentin günündə ona göndərdiyim bütün təbrik kartlarını qoruyub saxlayırdı. Qvendolen xatirə əşyalarına böyük dəyər verən qadınlardan idi. Nişanımızı qeyd etdiyimiz restoranın menyusunu, bal ayını keçirdiyimiz otelin fotoalbomu olan kartı, illər boyu birgə çəkdirdiyimiz bütün fotoları, toy fotolarımızın bir arada toplandığı və təbii dəri ilə üzlənmiş albomu o, öz makiyaj masasının siyirmələrindən birində saxlayırdı. Etiraf eləyim ki, Qvendolen həddiz romantik ruha sahib idi və buna görə də tez-tez başqalarına qarşı dağürəkli davrandığı üçün Rivi danlayırdı. Öz sonuncu məşuqəsinə harayа dincəlməyə getdiyini və ya ümumiyyətlə bu barədə bircə kəlmə də deməyən Rivi qəddarlıqda suçlayan Qvendolen özündən çıxmışdı:

- Səni sevən adamla belə davranmağa nə haqqın var?! Bununla onun qəlbini qırırsan, axı!

- Qvendolen, əzizim, onun qəlbi-zadı yoxdur. Qadınlarda yerli-dibli qəlb olmur. Qəlbin əvəzinə onlara tamamilə fərqli bir mexanizm bəxş olunub və o, bir az teleskopu, bir az yalan detektorunu, qismən skalpeli, qismən isə kastrasiya (axtalama - A.Y.) alətini xatırladır.

Arvadım ona acıqlandı:

- Necə də kobudsunuz! Görünür, günlərin bir günü özünüz birisinə vurulmayana qədər bunun necə çəkilməz iztirab olduğunu anlamayacaqsınız.

Başqa yazarlardan sitat gətirməyi sevən Riv dillәndi:

- Onu bilmək olmaz. Bu barədə Şou yaxşı deyib: «Başqalarının sənə qarşı necə davranmasını istəyirsənsə, heç vaxt bunun ziddinə getmə, çünki hər adam özünə görə, yəni fərqli zövq sahibidir».

- Ancaq başqalarının bizə qarşı eyni cür, yəni yaxşı davranması üçün, məncə, bizim zövqlərimiz bir-birinə yetərincə uyğun gəlir.

- O məşuqəm də gərək məni caynağına keçirənə qədər bu barədə düşünəydi. Ondan qurtulmaq üçün illah harayasa getməm gərəkməz. Sadəcə harayasa gedəcəyimi demem yetərlidir. Sonra soyuducunu yeməklərlə doldurub, içki ehtiyatımı tutacağam ki, iki həftəliyinə evdən bayıra çıxmayım. Bənzər durumlarda bu üsulu əvvəllər də sınamışam. Həm keyfin istəyən dincəlmişəm, həm də bir xeyli yazı-pozuyla məşğul olmuşam.

Bunun cavabında Qvendolen də, mən də deyəcək bir söz tapmadığımızdan susduq. Yeqin bəyaqdan bəri siz, belə əxlaqsız birisi olmasına rəğmən, mənim Rivə niyə bunca rəğbət bəslədiyimə təəccüblənirsiniz. İndi bunun səbəbini xatırlamam müşkül məsələdir. Yeqin bu, onun cazibəsindən və hədsiz qonaqpərvərliyindən qaynaqlanırdı. Öz həyat yolu barədə kədərlə, dərin təəssüf hissiylə danışan bu adam özünü inandırmışdı ki, məhz həyat tərzim - bütün kişilərin can atdığı bir idealdır. Həm də maliyyə məsələlərində vaxtaşırı çəresizliyə qapılan Riv mənim bu sahədəki səriştəmə heyran qaldığından məni özünə bağlamışdı. Rəğbətimin bir səbəbi də mənimlə söhbət etmə tərziydi: sanki onunla eyni səviyyəli kübar insanlar olsaq da, özüylə müqayisədə mənim daha ləyaqətli ömür sürdüyüm hissini mənə aşılayırdı.

Cansıxıcı görünən tədbirlərimizdə Riv hamıda maraq doğuran şəxsiyyətə, hazırcavab müsahibə çevrilirdi, cansız keçən məclisə ruh qatırdı, əsl məsabəyinə çevrilirdi. Məsələ burasındaydı ki, o, aramızda mühasib, bank müdiri, vəkil, can həkimi və ya şirkət əməkdaşı olmayan yeganə adam idi. Rivin qələmindən çıxan kitablar evimizdəki rəfləri bəzəyirdi. Onları oxumaq üçün götürən dostlarımız başqalarının yanında öyünürdülər ki, Riv Beykerlə məhz bizim evdə tanış olublar. Onun bizə ara-sıra gəlib-getməsi evimizin burjua mühitindəki dəyərini və ailəmizə bəslənən marağı, qismən də olsa, artırırdı.

Görünür, həmin vaxtlar mən: «Rivi ailəmizə bağlayan cəhət nədir, axı?» sualını özümə verməliydim artıq. Təxminən bir il əvvəl mən Riv ilə Qvendolen arasındakı münasibətlərdə soyuq rüzgarlar əsdiyinin fərqinə varmışdım. O vaxta qədər Riv arvadımla səmimi zarafatlar edir, ona məzəli komplimentlər söyləyir, şux etiraflarda bulunurdu. Qvendolen isə onun bu oyunbazlığını arasının uşağına göstərdiyi temkinlə, bir az da türkəkcə qarşılayırdı. Qəfildən bütün bunlar yoxa çıxdı və üçümüz bir arada olanda onlar bir-biriylə mənim aracılığımla danışmağa üstünlük verməyə başladılar. Sanki mən onların tərcüməsi idim. O ara Qvendolendən Rivin onun xətrinə deyib-demədiyini xəbər aldım.

Üzündəki ifadə göstərirdi ki, bu sualdan yamanca çaşıb:

- Niyə bunu soruşursan ki?

- Mənə elə gəlir ki, Riv yanımızda olanda adətən çılğına dönürsən.

Qvendolen dedi:

- Fikir vermə. Bundan sonra onunla xoş davranaram. Aramızda nəyinsə dəyişdiyinə heç diqqət yetirməmişdim.

Arvadımın mənə münasibəti də dəyişmişdi. Bəzən ona toxunanda tez məndən aralanmağa çalışırdı. Ər kimi onu məmnun eləsəm də, son vaxtlar mənimlə məhrəm təmaslardan qaçırdı.

Bir gün onunla yaxınlığımız hər hansa ciddi səbəb olmadan və həmişəkindən daha erkən bitəndə mən hiddətimi boğa bilməyib, xəbər aldım:

- Nə olub axı, sənə?

O, elə bir şey olmadığını deyəndən sonra əlavə elədi:

- Sadəcə get-gedə yaşlanırıq. Təzəcə evləndiyimiz vaxtlardakı ehtiras zamanla söhnəsi normal haldır.

Lap özümdən çıxdım:

- Qoy oturmuşuq, sən Allah! Sənin cəmi otuz beş yaşın var. Mənim isə otuz doqquz. Ahılığın öz bərabərində gətirəcəyi iqtidarsızlığa hələ çox var.

Bədbəxt görkəm alan Qvendolen kökə ötürdü. Çox fikirli görünürdü, xasiyyəti də dəyişmişdi. Riv yanımızda olanda ağzını bıçaq açmırdı, o, uzaqda ikən isə yalnız və yalnız ondan bəhs edir, onun xasiyyəti barədə öz fikirlərini dilə gətirmək üçün sanki səbəb axtarırdı. Toyumuzun onuncu ildönümünə Rivin hər ikimizin adına göndərdiyi təbrik kartını oxuyanda arvadımın üzündə nədənsə nəzakətli bir ifadə dolaşırdı. Həmişəki kimi, Qvendolenə bir dəstə qızılgül göndərmişdim. Həmin həftənin sonuna doğru bir qəbzin harayasa qeyb olduğunu sezdim: mühasib işlədiyim üçün mən belə məsələlərdə kifayət qədər ayıq-sayığam. Yanlışlıqla onu zibil səbətinə atdığımı düşündüyüm üçün oradakı kağız-kuğuzun arasında qəbzi axtardım. Qəbzlə birlikdə, Qvendolenə buketlə birgə göndərdiyim təbrik kartına da zibil səbətində rast gəldim. Bənzər məqamlar diqqətimdən yayınmasa da, bütün bunların sadəcə fərqindəydim və ayrı-ayrı faktları ortaq məxrəcə gətirib, onlardan gərəkli nəticəni çıxartmaq üçün həyat təcrübəm hələlik yetərsiz idi. Məişət məsələlərinə özümü çox da köklənmirdim və elə buna görə də, məsələn, günortadan sonra evə etdiyim zənglərə arvadımın cavab verməməsini pis yerə yozmurdum, onun vaxtaşırı özünə təzə geyim-keçim almasına da normal yanaşırdım. Bütün bunların fərqindəydim, elə hey şübhələrə dalsam da, bir tədbir görmürdüm.

Rivdə müəyyən dəyişikliklər baş verdiyini sezmişdim. Ən çox diqqətimi çəkən də onun məşuqələrindən söz salmaması idi.

Qvendolenə demişdim ki, deyəsən, o, ən nəhayət, yetkinləşməyə başlayıb.

Arvadım ruh yüksəkliyi və razılıqla dillənmişdi:

- Mən də bunun məhz belə olduğunu sanıram.

Ancaq Qvendolen yanılırdı. Rivin subaylıq həyatının nişanələri kimi dəyərləndirdiyim məqamlar cəmi üç ay davam elədi. Bunun ardınca növbəti məşuqəsi barədə təəssüratlarını o, mənimlə təkbətək qalanda paylaşdı. Bir cümə günü, axşam saatlarında pabda adama bir stəkan viski içərkən mənə etiraf elədi ki, iyirmi yaşlarında, canlara dəyən bir ceyranla, həm də bir həftə əvvəl bir partidə tanış olub.

Özümü saxlaya bilmədim:

- Mən bilən, Riv, bu da çox sürməyəcək.

- Mən də bundan tam əminəm. Uzun sürəcək bir ilişki kimə gərəkmiş, axı?!

Bu məşuqəsi Qvendolen ola bilməzdi. Bu xəbəri onunla paylaşanda əvvəlcə buna şübhəylə yanaşan arvadım az sonra nədənsə dəhşətə gəldi. Bu sirri ona açmağımdan məyus olduğunu bildirdim, çünki hər səfər Rivin vədlərini tutmaması Qvendolenin qanını yamanca qaraldırdı. Bu yerdə o, sert tərzdə sözümü kəsərək dedi ki, daha bu barədə heç nə danışmaq istəmir.

O gündən etibarən arvadım daha əsəbi oldu, çilğınlaşdı və daha tez-tez qüsseyə qapıldı. Hər dəfə telefon zəng çalanda o, oturduğu yerdə səksənirdi. İki-üç kərə işdən dönəndə mən evdə nə arvadımı, nə də onun açdığı yemək süfrəsini gördüm. Məndən bir qədər sonra evə gələn Qvendolenin halsız olduğunu sezəndə dedi ki, havaya çıxıbmış. Müayinə edən ailə həkimimiz ona trankvilizatorlar yazdı və sonrakı günlərdə arvadım lap əzvaylaşdı.

Rivlə görüşməyəli az qala bir əsr olmuşdu. Günlərin bir günü, onun iş yerimə zəng edib, üç həftəliyinə Fransanın cənubuna gedəcəyini bildirməsi məndən ötrü son dərəcə gözlənilməz oldu.

Heyrətimi gizlətmədim:

- Beyəm maliyyə durumunuz buna əl verir ki?

Rivə min bir əziyyətlə başa saldım ki, yanvar ayında o, mütləq gəlir vergisi ödəməlidir. Bunu ikdə iki kərə edirdi. Onun yalnız may ayında yeni kitabı üçün avans alacağını xatırlatdım. İndiki şərtlərdə onun müflisləşdiyi şübhəsiz idi.

Soruşdum:

- Fransanın cənubunda dincəlmək, sizcə, aşkar israfçılıq deyilmi?

Riv dedi:

- Çuluma birtəhər sudan çıxararam, canım. Bank müdiri mənim pərəstişkarlarımdandır. Kredit məbləğimi artıracağına şübhə bəsləmirəm.

Rivin istirahətə getməsi xəbəri, deyəsən, Qvendoleni zərrəcə təəccübləndirmədi. Riv demişdi ki, sonuncu sütül qızla araları çoxdan dəydiyindən dincəlməyə tək gedir. Qvendolen də belə qənaətdə idi ki, Rivin təkbaşına dincəlməsi daha məsləhətlidir, bəlkə saysız-hesabsız məşuqələri ən azından onun zəhləsini tökməzlər.

İlk dəfə onunla tanış olanda Riv kirayə mənzildə yaşayırdı. Həm şəxsi evi, həm də kartı sərmayə yatırımı olsun deyə, onu tutduğu mənzilə bənzər bir ev almağa razı salmışdım. Beysuoter səmtindəki bu ev Viktoriya dövrü tərzində tikilmişdi və binanın kürsülük qismində yerləşdiyindən əslində yarımzirzəmi sayılmalıydı. İşə gedərkən mən Rivin yaşadığı küçədən keçmirdim. Bəzən hərəkət hədsiz sıx olanda məcburən dolayı yollara üstünlük verdiyim üçün və maşınla onun evinin yanından keçirdim.

Riv istirahətə yollanandan iki həftə sonra, bir səhər evinin yanından ötəndə istər-istəməz nəzərlərim onun pəncərəsinə sataşdı. Məncə, dostumun evdə olmadığını bilən hər kəs evinin qarşısından keçərkən məhz belə edər. Rivin yataq otağının pəncərəsi küçəyə baxırdı. Yoldan keçəndə pəncərənin yalnız üst qismi görünür, alt tərəfi isə kolların ardında qalırdı. Pərdələrin çəkili olduğu nəzərlərimdən yayınmadı. Düşündüm ki, bu, əsl ehtiyatsızlıq nişanəsidir, axı, oğrular məhz belə, yəni sahibsiz evlərə qənim kəsilirlər. Ancaq az sonra bu detal fikrimdən silinib getdi.

İki gün sonra yenə oradan keçəsi oldum. Bu səfər küçədə böyük tıxac yaranmışdı və oradan ağır-ağır keçirdim. Təkrar Rivin pəncərəsinə nəzər yetirdim. Bu dəfə pərdələr çox da sıx çəkilməmişdi və aralarında təxminən on beş santimetr məsafə vardı. Otağa işıq düşsün deyə, heç bir oğru pərdəni bu qədər çəkməzdi, əlbəttə. Oğrudan söhbət gedə bilməzdi. Düşündüm ki, yəqin Riv səfərdən gözlənildiyindən erkən qayıdıb. Bu tıxacda vaxt öldürməklə, onsuz da işə gecikəcəyimi gözə aldım və maşınımı yaxınlıqdakı pullu dayanacağa qoydum. Fikirləşdim ki, həm Rivə baş çəkər, həm də bir fincan qəhvəsini içərəm. Ancaq nə qədər döyəcləsəm də, qapıya heç kəs çıxmadı. Pərdələrə təkrar zənnlə baxanda anladım ki, bu son iyirmi dəqiqə ərzində kim isə onları bir az da aralayıb. Buna şübhə ola bilməzdi.

Üst qatdakı qadının qapı zəngini çaldım. Əynində xələt olan qadın düşüb, giriş qapısını açanda üzrxahlıq elədim:

- Narahatlığa görə bağışlayın. Bəlkə bilmiş olarsınız, mister Beyker səfərdən qayıdıb?

Qadın dedi:

- O, şənbə günündən tez dönməz.

- Bundan əminsiniz?

Qadının səsində əsəbilik sezildi:

- Heç şübhəniz olmasın. Bazar ertəsi qapının kandarından içəri bir kağız yazıb qoydum. Əgər evə dönsəydi, onun əvəzinə poçtalyondan aldığım qutunu götürmək üçün lənginədən qapını kəsdirərdi.

- Bilmirsiniz, o, maşınıyla yola çıxıb?

- Hər halda, canım. Nə isə olub ki? Yoxsa yenə bir hoqqa-zad durğuzub?

Onun hər hansı hoqqa çıxarmadığını eşidən kimi qadın giriş qapısını üzümə örtdü. Çarəsiz qalıb, yaxınlıqdakı özəl qarajların yerləşdiyi əraziyə üz tutdum. Qapıya mat şüşə vurulduğundan qarajın içi yaxşı seçilmirdi. Buna rəğmən, mən Rivin yaşıl «Fiatı»nın yerində olduğunu dəqiqləşdirdim. Artıq Rivin heç yerə getmədiyinə şübhəm qalmamışdı. Təsəvvürümə gətirdim ki, heç yerə getməyən Riv həftələr boyu evində necə gizlənir, bayıra çıxmadan, soyuducusuna yığdığı yeməklərlə bəslənir, vaxtının böyük qismini hündür hasarla əhatələnmiş həyətə baxan otaqda keçirir. Buna görə də istər gecə olsun, istər gündüz, pəncərəsindən düşən işığı heç bir Allah bəndəsi əzə bilməz. Öz-

özlüyümdə qət elədim: «Eybi yox, şənbə gününədək yaşayarıq, görərik. Səfəri barədə Rivi sorğu-suala tutmaqla, mən ondan söz almağa çahşacağam. Onda öz xəyal gücünə güvənən bu yazar məcbur qalıb, heç hara getmədiyini asanlıqla boynuna alarə.

Həmin gün mən evə dönəndə Qvendolen süfrə hazırlayırdı. Rivi necə oyuna gətirəcəyimlə bağlı planlarımı onunla bölüşmək qərarına gəldim. Dostumun adını eşidən kimi arvadımın bütün fikri-zikri mənə cəmləndi. Rivin maşınının qarajda olduğunu bildirəndə Qvendolenin rəngi-ruhu qaçdı, baxışlarını üzümə zilləd. Stula çökən qadının əlində tutduğu çəngəl-qaşığın hamısı döşəməyə töküldü.

Təlaşa qapıldım:

- Sən Allah, nə oldu sənə belə?

- O, necə belə qəddar ola bilər, axı? Başqalarıyla necə belə davranar?

- Əzizim, sən ki yaxşı bilirsən: Riv qadınlara qarşı amansızdır. Yadındadır, əvvəllər də bənzər fəndlərə əl atdığından bizə söz açmışdı.

Qvendolen dedi:

- İndicə durub, ona zəng edəcəyəm.

Onun bütün bədəninin əsdiyini gördüm. Rivin nömrəsini yığsa da, dəstəkdən uzun-uzadı siqnal səsi gəldi.

Ona dedim:

- Zənglərə cavab vermir. Belə əsəbləşəcəyini bilsəydim, sənə heç nə deməzdim, vallah.

Qvendolen daha bir kəlmə də kəsmədi. Ocaqda nə isə qaynayırdı, süfrə, yarımçıq da olsa, salınmışdı. Arvadım bunları heçə sayaraq, durub dəhlizə çıxdı. Az sonra isə mən giriş qapımızın zərblə çırpıldığını eşitdim.

Çətin durumlardan çıxış yolu tapmaqda sən deyən səriştəli olmadığımı özüm də yaxşı bilirəm. Ancaq kişi də sayılmaram. Mən arvadıma güvənib-güvənmamək şübhəsinə heç vaxt qapılmamışam və xanımıma həddiz etimad bəsləsəm də, o dəm anladım ki, bilmədiyim nələr isə baş verməkdədir. Hərçənd yenə də: «Narahatlıq doğuracaq heç nə yoxdur» - deyə özümə təsəlli hissi aşıladım. Mənə elə gəlirdi ki, arvadım Rivin yaratdığı qəhrəmanlara həddiz aludə olub, Riv isə onu ən yaxın dostu və dərindən anlayan oxucusu adlandırmaqla, arvadımın buna inamını daha da möhkəmlədib. Onun hər sirrindən agah olan, ancaq son hiyləsinin qurbanı olan Qvendolen özünü aldadılmış və təhqir olunmuş biri sanə bilərdi. Hər ehtimala qarşı üst mərtəbəyə qalxaraq, mən arvadımın makiyaj masasının siyirməsində saxladığı xatirə əşyalarına nəzər salmağı lazım bildim ki, təxminlərimin doğruluğundan əmin olum.

Deyəcəksiniz ki, axı, niyə? Niyə də olmasın?! Qvendolen həmin siyirməni heç vaxt kilidləməz, orada saxladığı əşyaları məndən gizlətməzdi.

İlk görüşlərimizin, mənim ona bağlılığımın, toyumuzun şahidi sayılan bütün əşyalar oradaydı, siyirmədəydi. Mənim onun ad gününə və Müqəddəs Valentin gününə göndərdiyim təbrik kartlarının arasında bir dənə qurumuş qızılgül də vardı. Krujevalı dəsmalın arasında isə mən medalyon və düymə tapdım. Anasından yadigar qalan medalyonun içinə arvadım çoxdan vəfat edən və qohumu sayılan bir xanımın fotosunu yerləşdirmişdi. İndi isə oraya Rivin haradansa kəsilən bir şəkli taxılmışdı. Medalyonun arxa tərəfində isə bir çəngə tük gözə dəyirdi:yəqin Qvendolen onları Rivin mənzilində qonaq olduğumuz vaxt, onun darağından götürmüşdü. Düymə də mənə tanış gəldi - o, Rivin əlvan rəngli idman gödəkçəsindən idi, ancaq kəsilməmişdi, qopub düşmüşdü hər halda. Zavallı Qvendolen... Bütün bunlarda mən Rivi günahlandırırdım hələ də. Məni evdə qoyub gedən arvadımın otağında oturaraq, qara-qara düşünürdüm ki, doğrudanmı Riv buna qadirdir? Doğrudanmı ən sadiq dostum mənə xəyanət eləyib? «Yox, - deyirdim, - bu, mümkün deyil. Axı, o, arvadıma heç vaxt nə məktub, nə də bir dəstə çiçək göndərib».

Demeli, bütün bunlar Qvendolendən qaynaqlanırdı. İndi onun haraya gedəcəyini bildiyim üçün onların görüşünə əngəl olmalı, arvadımın bunca alçalmaqdan qorumalıydım. Medalyon ilə düyməni cibimə qoydum, nə dərəcədə sadəlövh olduğunu sübuta yetirmək üçün bunları ona göstərəcəkdim. Qvendolen maşınsız yola çıxmışdı, çünki Londonun mərkəzində maşın sürməkdən xoşlanmırdı. Sükan arxasına keçib, maşınla Qvendolenin çıxacağı metro stansiyasının girişinə yollandım. On beş dəqiqə gözlədim. Metrodan çıxan Qvendolen yan-yörəsinə baxına-baxına, iti addımlarla yola düzəldi. Məni görünca, heyrətdən içini çəkdi və yerində quruyub qaldı.

Yumşaq tərzdə:

- Əzizim, keç, otur maşına, - dedim. - Seninlə danışacaqlarım var.

O, etiraz eləmədən maşına oturdu. Mən Beysuoter küçəsiylə parka tərəf yola düzəldim. Yol qovşağına yaxın yerdə, çinarların altında maşını əylədim. Araya çökən ağır sükutu bu sözlərlə pozdum:

- Mənim hər şeydən bixəbər olduğumu heç düşünmə. On ildir seninlə evliyik və özümün cansıxıcı birisi olduğumu yaxşı bilirəm. Riv ilə vaxt keçirmək sənə daha maraqlıdır, əlbəttə... Elə buna görə də sən ona vurulduğuna sən özünü inandırıbsan.

Dalğın baxışlarını mənə dikən Qvendolen qətiyyətlə dedi:

- Mən onu sevirəm, o da məni.

- Mənasız sözlərdir, - deyə etiraz edərkən fərqinə vardım ki, bədənimdə dolaşan soyuq gizilti heç də yaz gecəsinin sərinliyindən qaynaqlanmır. - Görünür, Riv səni də tilsimləyib...

Arvadım sözümü ağzında qoydu:

- Səndən boşanmaq istəyirəm.

Səsimi qaldırdım:

- Ağlını başına topla! Sən onu yaxşı tanımırsan. Bəlkə də heç onunla baş-başa da qalmayıbsan. Yoxsa elə deyil?!

Qvendolen çarəsizliklə dolu, quru bir qəhqəhə çəkdi:

- Heç vaxt baş-başa qalmamışıq, eləmi? Altı aydan bəri mən Rivin məşuqəsiyəm və indi də onun ağuşuna gedirəm. Gedib ona deyəcəyəm ki, bundan belə həmişəlik ona sığınacağım üçün digər qadınlardan qaçıb gizlənməsinə heç bir ehtiyac qalmayacaq!

Yarıqaranlıqda bərəlmiş gözlərlə Qvendolenə süzürdüm. Eşitdiklərimə şübhə bəsləməsəm də, qətiyyətlə dedim:

- Birca sözünə də inanmıram. Demək istəyirsən ki, başqaları kimi o, səni də?.. Yəni mənim arvadımı da?..

- Mən Rivə ərə gedəcəyəm. Onu tək mən anlayıram. Təkcə mənə o, könlündən keçənləri açıb, söyləyə bilir. Yola düşməzdən əvvəl özü bunu mənə etiraf eləmişdi.

Gözlərimin qarşısında al qırmızı ləkə peyda oldu:

- Ancaq nədənsə o, heç haraya getməyibdir. Ay səni yelbeyin! - deyə üstünə qımxırdım. - Niyə anlamaq istəmirsən ki, indi də o, məhz səndən qaçıb, gizlənir?! İndiyədək başqa məşuqələrindən necə yaxasını qurtarırdısa, indi də eyni fəndi sənə tətbiq eləyir? Səni sevir deyirsən? Heç indiyədək o, sənə nə isə, hətta fotosunu belə, bağışlayıbmı? İndi evinə gətsən, o, sənin də üzünə qapısını açmayacaq. Evinə buraxmayacağı yeganə adam varsa, bil ki, indi o - sənsən!

Səsini başına ataraq, o:

- Mən onun yanına gedirəm! - dedi və qapını açmağa cəhd göstərdi. - Onun yanına gedəcək, onunla yaşayacağam. Sənin üzünü bir daha heç görmək də istəmirəm!

Həmin gün mən evə tək döndüm. Qvendolenin son arzusu isə həyata keçdi: o, mənim üzümü bir daha görmədi.

Axşam saat on birə qədər evə gəlmədiyi üçün bunu polisə xəbər verdim.

Məndən polis şöbəsinə gəlib, itkin düşən şəxslə bağlı anketi doldurmamı xahiş etdilər və təlaşlarıma bir elə əhəmiyyət vermədilər. Görünür, Qvendolen yaşdakı qadınların itməsi faktlarını polislər adi hal sayırlar və düşünürlər ki, uzaqbaşı başqa bir kişiyə qoşulub qaçıb. Ancaq park gözətçisi səhər kolluqda Qvendolenin cəsədini tapanda polislər əməlli-başlı əl-həya düşdülər, çünki mərhumənı boğmuşdular.

Cümə axşamı idi o gün. Qvendolenin evindən xeyli aralıdakı o yerə niyə və kimin yanına getdiyinə dair sorğu-suala başlayan polis Kensinqton, Pəddinqton və Beyswort səmtlərində, ümumiyyətlə, parka yaxın ərazidə hansı tanışlarımızın yaşadığını araşdırırdı. Cavab verdim ki, oralarda heç bir tanışımız yaşamır.

Sonrakı gün eyni suallar təkrarlananda mən özümü guya yalnız indi bunu xatırlamış kimi apararaq, dedim:

- Təkcə romançı Riv Beyker. Onu tanımamış olmazsınız.

Onun adresini yazdırarkən əlavə elədim:

- Ancaq hazırda Beyker şəhərdə deyil, üç həftəliyinə səfərə gedib. Sabahdan tez geri dönəcəyini təxmin etmirəm.

Sonra nələrin olub-bitdiyini mən məhkəmədə, arvadımın qətlində suçlanan Rivə qarşı açılan prosesdə verilən ifadələrdən öyrəndim. Şənbə günü səhər tezdən polis onun mənzilinə soxulub. Anladığım qədəriylə, ilk başda polis, ümumiyyətlə, ondan şübhələnmirmiş. Kriminal romanlardan əxz elədiyim bilgilərə əsasən bilirdim ki, polis Qvendolenlə mənim ailə həyatımıza dair Rivdən imkan daxilində daha çox məlumat toplamağa çalışacaq.

Polis ondan əvvəl bir neçə qonşunu dindirdiyi üçün Rivin bəxti gətirmədi. Onlar bir ağızdan Rivin səfərə getdiyini təsdiqlədilər. Südçü kişi və qəzetçi oğlan bundan tam əmin idilər. Ona görə də polisin onu nə səbəbə dindirdiyini öyrənən Riv tamamilə təşvişə qapıldı. Özünün Fransada olduğunu iddia eləməyə isə cəsarəti çatmadı, çünki bənzər ifadələrin yalan-doğru olduğunu öyrənmək polis üçün su içmək qədər asandır. Odur ki, həqiqəti deməyə üstünlük verib: zəhləsini tökən bir xanımdan qurtulmaq üçün evinə qapanıb. Xanım kimdir? Riv açıqlamalardan boyun qaçırtsa da, üst mərtəbədə yaşayan qonşu qadın bunu yerli-yataqlı şəkildə açıb-ağardıb. Qvendolenin gündüzlər tez-tez Rivin evinə gəldiyinə, onların necə dilləşdiklərinə şahidi olubmuş bu qonşu. Qvendolen deyirmiş ki, Rivi sevir və onsuz yaşaya bilmir, o isə çığırırmış ki, hansısa qadının onu noxtalamasına əsla yol verməz və öz sərbəstliyini qorumaqdan ötrü hər şeyə əl atacaq.

Aydın məsələdir ki, o axşam parkda işlənən cinayətə hər hansı dəxli olmadığını sübuta yetirmək üçün Rivin əlində heç bir alibi yox idi. Həm hakim, həm də məhkəmənin andlı üzvləri bunu təmin etməyə çalışan Rivin necə dəridən-qabıqdan çıxdığını görürdülər. Adətən yazarlar bütün güclərini xəyallarına verirlər, polislərə xas xırdaçılıq və çürükçülük isə qələm əhlinə yaddır. Polisin əlində Rivin günahını təsdiqləyən maddi sübutlar isə həddindən çox idi. Məhkəməyə təqdim olunan üç əsas dəlil Rivin qolundakı düyməsi qopmuş əlvan rəngli idman gödəkçəsi, onun düyməsi və müttəhimin bir çəngə saçından ibarət idi. Düymə Qvendolenin cəsədinin yaxınlığında, saç çəngəsi isə onun paltosunda tapılmışdı. Belə çıxır ki, indiyədək mən detektiv əsərləri boşuna qiraət eləməmişəm. Hərçənd o qətldən ötən müddətdə bir dənə də detektiv oxumamışam. Görünür, başına bənzər olay gələndən sonra heç kəs o kitabları oxumağa gərək duymur.

Tərcümə: **Azad YAŞAR**

EUROMONITOR INTERNATIONAL

TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.

İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).

İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.

MAKAO (*Çin Xalq Respublikası*)
















ESPRIT






DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.

HAAQA

NİDERLAND PARLAMENTİNİN KİTABXANASI



Kral kitabxanası da adlanır. Əsası 1798-ci ildə qoyulmuşdur. Fondu 3,5 milyon nəşrdən ibarətdir. Onlardan 2,5 milyonu kitabdır. Kitabxana 15 minə yaxın qəzetin abunəçisidir. İllik büdcəsi 36 milyon avrodur. Avropa kitabxanaları arasında şahmata aid ən zəngin (40 min cildə yaxın) ədəbiyyat bu kitabxanada toplanmışdır.

XƏZƏR UNİVERSİTETİNİN
DÜNYA MƏKTƏBİ

BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dinlindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

Ünvan:

Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (+994 12) 563 59 40 /47 /48
Mob.: (+994 70) 844 08 88

Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

E-mail: info@dunyaschool.az
http: // dunyaschool.az

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seçl

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn